XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU



No. 3(57)

APREL 2016

khazar-review.khazar.org

AYLIQ DƏRGİ

ISSN 2218-2772


KHAZAR VIEW
KHAZAR UNIVERSITY
KHAZAR VIEW
Xəzər Xəbər
KHAZAR VIEW
Xəzər Xəbər
KHAZAR REVIEW
Xəzər Xəbər
KHAZAR REVIEW
Xəzər Xəbər
KHAZAR REV

İÇİNDƏKİLƏR

Dünya şöhrətli fizik Roald Sagdeev Xəzər Universitetində 4
Norveç səfirinin "Xəzər"də mühazirəsi 6
Türkiyə universitetlərinin təhsil sərgisi 9
Doktorantura təhsilinin vəziyyəti müzakirə olundu. 10
"Xəzər"də yubiley 16
Hamlet İsaxanlı: "Sokrat deyirdi ki, insanlar pisliyi pis olduqları üçün eləmirlər..." *(Qərənfil Xəlilova)* 22
Xəzər Universitetinin "Dünya" məktəbində təqdimatı 30
"Xəzər"in əməkdaşı 19-cu Avrasiya İqtisadiyyat Sammitində 32
"Xəzər"də Tempus layihəsi üzrə yekun konfrans 37
Departament müdirimiz Vatikanda keçirilən beynəlxalq konfransda çıxış etmişdir 41
James C. Cobb. Cleansing American Culture of Ties to Slavery Will be Harder than You Think 46
Rektor Birinci Milli BMT Modeli Konfransında fərqlənmiş tələbələrlə görüşdü 48
PACT başa çatdı 50
Jeffrey Kluger. How Your Birth Order Affects Your ODDS of Success 54
"Elm və Sənət Məclisi"nin 66-cı məşğələsi 62
Xəzər Universitetində "Şekspir dünyada" adlı konfrans keçirildi 68
Azərbaycan III Beynəlxalq Psixologiya Konfransı 74
Fyodor Tütçev. Şeirlər 76

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Kıyaz Aslan

İngilis dilində mətnlərin redaktoru:
Marta Lauri

Rəssam:
Mir Rafiq Əbdürrəhimov

Kompüter tərtibatçısı:
Nigar Aydəmirova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1998

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editors:
Alirza Balayev

Editorial member:
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Kıyaz Aslan

Editor of English Texts:
Martha Lawry

Design by:
Mir Rafig Abdurahimov

Computer graphics:
Nigar Aydemirova

Photo:
Multimedia Centre



DÜNYA ŞÖHRƏTLİ FİZİK ROALD SAGDEEV XƏZƏR UNİVERSİTETİNDƏ

Aprelin 1-də dünya şöhrətli fizik Roald Sagdeev Xəzər Universitetində universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü. H.İsaxanlı qonağa Xəzər Universiteti və Avrasiya Akademiyası haqqında geniş məlumat verdi. Roald Sagdeev də öz elmi fəaliyyəti haqqında danışdı. Görüşdə müxtəlif elmi məsələlər və əməkdaşlıq planları müzakirə olundu.

Qeyd edək ki, Roald Sagdeev plazma üzrə fizika sahəsində aparıcı mütəxəssisdir və keçmiş SSRİ Elmlər Akademiyası Kosmos Tədqiqatı İnstitutunun direktoru olmuşdur. Hazırda ABŞ-da yaşayır.

HAFTA.AZ SAYTINDA MÜSAHİBƏDƏ "XƏZƏR"DƏN DƏ DANIŞILMIŞDIR

Aprelin 1-də ***hafta.az*** saytında Azərbaycanın Misirdəki səfirliyinin müşaviri Rəfael Bağırovla "Ermənilərin Misirdə altı kilsəsi mövcuddur" başlıqlı müsahibə yayımlanmışdır. Müsahibədə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının Misirə səfəri və Misir Elm və Texnologiya Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalaması haqqında da danışılmışdır.

Müsahibəni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

http://hafta.az/index2.php?m=yazi&id=175181

WORLD-KNOWN PHYSICIST VISITS KHAZAR

On April 1, world famous physicist Roald Sagdeev visited Khazar University and met with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees. Prof. Isaxanli spoke about Khazar University and Eurasian Academy, and Roald Sagdeev in turn spoke about his own scientific activities. They discussed various scientific issues and plans for future cooperation.

Roald Sagdeev is a leading expert in plasma physics. He formerly served as Director of the Russian Space Research Institute in the USSR Academy of Sciences. He currently resides in the USA.

"ÖZƏL UNİVERSİTETLƏR SAVADLI TƏLƏBƏLƏRƏ NƏ KİMİ GÜZƏŞTLƏR EDİR?"

Gündəlik ictimai-siyasi nəşr olan "Kaspi" qəzetinin 1 aprel 2016-cı il tarixli nömrəsində Aygün Aslmqızının "Özəl universitetlər savadlı tələbələrə nə kimi güzəştlər edir?" adlı məqaləsi dərc olunmuşdur. Məqalədə digər özəl ali təhsil müəssisələri ilə yanaşı, Xəzər Universitetində də tələbələrə edilən güzəştlərdən danışılır.

(http://www.kaspi.az/news.php?id=27940)

Həmin məqalə *azadinform.az*

(http://www.azadinform.az/news/a110-698.html), editor.az

(http://editor.az/news/101532) və digər saytlarda da yerləşdirilmişdir.




ƏDALƏT AKADEMİYASININ REKTORU XƏZƏR UNİVERSİTETİNDƏ

Aprelin 19-da Türkiyənin Ədalət Akademiyasının rektoru Yılmaz Akçil, akademiyanın prorektoru Mustafa Arkuç və akademiyanın hakimi Dicle Gözde Koçyiğit Xəzər Universitetində oldular. Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı türkiyəli qonaqları səmimi salamlayaraq, onları qəbul etdi. Görüşdə İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli iştirak edirdi.

H.İsaxanlı universitet haqqında qonaqlara geniş məlumat verdi. Yılmaz Akçil də Türkiyənin Ədalət Akademiyasının işi haqqında danışdı və gələcəkdə Xəzər Universiteti ilə əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğuladı.

RECTOR OF JUSTICE ACADEMY VISITS KHAZAR UNIVERSITY

On April 19, Yilmaz Akcil, the Rector of Adalet (Justice) Academy of Turkey; Mustafa Arkuc, Vice Rector; and Dicle Gozde Kocyigit, Judge of the Academy, visited Khazar University. They met with Prof. Hamlet Isaxanli, Founder of the University and Chairman of its Board of Directors and Trustees. During the meeting, Prof. Isaxanli gave the guests detailed information about Khazar University. Yilmaz Akcil also spoke about the activities of his Academy, emphasizing the need to further develop relations between the two institutions. Alovsat Amirbeyli, Director of Public Relations and Media, also participated in the meeting.





NORVEÇ SƏFİRİNİN "XƏZƏR"DƏ MÜHAZİRƏSİ



Aprelin 1-də Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin təşkilatçılığı ilə Norveçin Azərbaycandakı səfiri Bard Ivar Svendsen Norveçin regional inteqrasiya proseslərində iştirakı haqqında mühazirə ilə çıxış etdi. Mühazirədən əvvəl o, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü.

Mühazirəsinin əvvəlində səfir ölkəsinin regiondakı siyasətinə təsir göstərmiş tarixi amillərdən bəhs etdi. Norveç və Avropa İttifaqı (Aİ) haqqında danışarkən, Aİ-yə üzv olmayan Norveçi ittifaqın daxili bazarına məhdudiyyətsiz giriş ilə təmin edən Avropa İqtisadi Sahəsi haqqında Saziş barəsində ətraflı məlumat verdi. O, həmçinin, Norveçin Aİ-yə üzv olmaq istəməməsinin səbəbləri haqqında danışdı, Norveçin regional səviyyədə əməkdaşlıq etdiyi "Nordic-Baltic 8" formatı, Arktik Şura və Barens Əməkdaşlığı haqqında da məlumat verdi.





NORWEGIAN AMBASSADOR SPEAKS AT KHAZAR UNIVERSITY

On April 1, the Department of Political Science and International Relations hosted H. E. Bård Ivar Svendsen, Norwegian Ambassador to Azerbaijan, to discuss Norway's participation in regional integration processes. Before his lecture, he met with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.

He started his speech by providing historical background on the factors that shaped Norway's policies in the Nordic region. He then discussed relations between Norway and the European Union, which are defined through the agreement on the European Economic Area granting Norway, which is not a member state of the EU, access to the EU internal market. He also spoke about factors that have influenced Norway's unwillingness to become part of the EU, the Nordic-Baltic cooperation, the Arctic Council, and the Barents Cooperation.

"XƏZƏR"DƏ YUBİLEYLƏR







Aprelin 1-də universitetin akt zalında Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə doktoru **Eldar Şahgəldiyevin 60**, tikinti üzrə menecer **Şahin İsayevin 50** illik yubiley tədbirləri keçirildi. Tədbirin aparıcısı, Məzunlarla iş mərkəzinin müdiri Baba Bayramlı yubilyarların universitetdəki fəaliyyəti haqqında məlumat verdi. Universitetin Multimedia mərkəzinin hər bir yubilyar haqqında hazırladığı slayd-şoular nümayiş etdirildi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, rektor Hassan Niknafs və prorektor Məhəmməd Nuriyev yubilyarlara təbrk məktubları və gül dəstələri təqdim etdilər, gələcək işlərində onlara uğurlar arzuladılar.

İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov yubilyarlar haqqında ürək sözlərini söylədilər.

Mərasim Musiqi və incəsənət departamentinin hazırladığı konsert proqramı ilə müşayiət olundu. Azərbaycan Dövlət Filarmoniyasının solisti, universitetin vokal müəllimi Məhsəti Cabbarova və Musiqili Komediya Teatrının solisti Xəyalə İlizarova mahnılar ifa etdilər.

Sonda yubilyarlar - Eldar Şahgəldiyev və Şahin İsayev mərasimin təşkilinə görə universitet rəhbərliyinə və iştirakçılara təşəkkürlərini bildirdilər.



TÜRKİYƏ UNİVERSİTETLƏRİNİN TƏHSİL SƏRGİSİ

Aprelin 2-3-də Bakı şəhərində "Akademi Qrup"un təşkilatçılığı ilə Türkiyə universitetlərinin təhsil sərgisi keçirildi. Sərgidə Tükiyədən çoxlu sayda universitet – Boğaziçi, Bilkent, İstanbul-Aydın, Fatih, Kahramanmaraş Sütçü İmam və digər universitetlər iştirak edirdi. Sərgidə Azərbaycandan yalnız Xəzər Universiteti təmsil olunurdu. Sərgiyə gələnlər Xəzər Universiteti və oradakı fakültələr barədə geniş məlumat almaq imkanı əldə etdilər. "Xəzər"in əməkdaşları - Aysel Əkbərova və Sevinc Şəfiyeva Xəzər Universiteti üçün ayrılmış guşədə şagirdlərin, valideynlərin və media mənsublarının suallarını ətraflı cavablandırdılar. Onlar sərginin təşkilatçıları tərəfindən təşəkkürə layiq görüldülər.

Aprelin 2-də sərgidə iştirak edən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli iştirakçı universitetlərin nümayəndələri ilə görüşdülər.

Həmin gün "Akademi Qrup" tərəfindən sərgidə iştirak edən qonaqların şərəfinə ziyafət verildi. Ziyafətdə Xəzər Universiteti adından Ə.Əmirbəyli iştirak etdi.







DOKTORANTURA TƏHSİLİNİN VƏZİYYƏTİ MÜZAKİRƏ OLUNDU

Aprelin 5-6-da Xəzər Universitetində NİZAMİ ERASMUS+ "Azərbaycanda doktorantura təhsilinin Avropa ali təhsil məkanı tələblərinə uyğun yenidən qurulması və inkişaf etdirilməsi" layihəsi çərçivəsində əməkdaş universitetlərin növbəti görüşü keçirildi. Tədbirdə Xəzər Universitetinin rəhbərliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyinin və AMEA-nın əməkdaşları, beş Avropa, bir Türkiyə və doqquz Azərbaycan universitetindən əməkdaşlar, Azərbaycan Milli Erasmus + ofisinin rəhbəri və əməkdaşı iştirak edirdilər.

Aprelin 5-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Azərbaycanda, Avropada, keçmiş Sovet ölkələrində, postsovet dövründə doktoranturanın yaranması və inkişafı tarixi haqqında iştirakçılara geniş məlumat verdi. Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Dr. Eldar Şahgəldiyev Azərbaycanda doktorantura təhsilinin müasir vəziyyəti haqqında danışdı.

Barselona Universitetinin əməkdaşı Dr. Amparo Kortes Lukas "Doktorantura təhsili: kəmiyyət və keyfiyyətin dilemması" adlı məruzə ilə *Skype* vasitəsilə çıxış etdi.

Aprelin 6-da AMEA-nın nümayəndəsi Bünyamin Seyidov Azərbaycanda doktorantura təhsili, qəbulu və tələbləri haqqında, Fatih Universitetinin əməkdaşı Dr. Fikret Tuna isə Türkiyədə doktorantura təhsilinin strukturu barədə danışdılar.

Masarykova Universitetin əməkdaşı Dominika Hobzova çıxış edərək, Çexiya Respublikasında doktorantura təhsili haqqında ətraflı məlumat verdi.

Çıxışlar zamanı müxtəlif ölkələrin doktorantura təhsilinin strukturu müqayisəli şəkildə ətraflı müzakirə edildi. Müzakirələrə Təhsil Nazirliyinin nümayəndələri Sulhəddin Gözəlov və Vüsalə Qurbanova da qatıldılar.

Xəzər Universitetində iki gün ərzində keçirilən tədbiri layihənin koordinatoru, Fransanın Montpellier Universitetinin əməkdaşı Dr. Veronika Montero yekunlaşdırdı.

Görüş aprelin 7- 8-də Bakı Dövlət Universitetində davam etdirilmiş və sona çatmışdır.









CURRENT STATE OF DOCTORAL STUDIES DISCUSSED



On April 5, a management meeting was held at Khazar University for partner universities in the "Restructuring and Development of Doctoral Studies in Azerbaijan in line with Requirements of Higher Education Area" NIZAMI ERASMUS + Capacity Building Project. Participants included representatives from the Khazar University administration, the Ministry of Education of the Azerbaijan Republic, 5 European universities, 1 Turkish university, 9 Azerbaijani universities, and the Director and staff of the Azerbaijan National ERASMUS+ office.

On April 5, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, spoke about the establishment and development of doctoral programs in Azerbaijan, Europe, and Soviet countries during and after the Soviet era. Dr. Eldar Shahgaldiyev, Head of the Division for Graduate Students and Research, also made a speech analyzing the current state of doctoral studies in Azerbaijan.

Dr. Amaro Cortes Lucas of Barcelona University made a presentation via Skype about "Doctoral Education: the Quantity/Quality Dilemma."

On April 6, Bunyamin Seyidov, representative of the Azerbaijan National Academy of Sciences, spoke about doctoral admissions and students, and Dr. Fikret Tuna of Fatih University spoke about the structure of doctoral studies in Turkey.

Then Dominika Hobzova of Masarykova University made a presentation about doctoral education in the Czech Republic.

The presentations were followed by discussions on comparisons of doctoral studies in various countries. Sulheddin Gozelov and Vusale Gurbanova of the Ministry of Education also participated in the discussions.

Dr. Veronique Montero of Montpellier University (France), coordinator of the project, closed the event which had been held for Khazar University for two days

The conference continued on April 7 and 8 at Baku State University.



igec

"INTERNATIONAL GROUP FOR EDUCATIONAL CONSULTANCY" ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

Aprelin 6-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "International Group for Educational Consultancy" (IGEC, Təhsil Məsləhəti üzrə Beynəlxalq Qrup) şirkətinin nümayəndələri ilə universitetinin "Neftçilər" kampusunda görüşdü.

IGEC şirkətini İordaniyadakı Baş ofisinin regional direktoru Dr. Derar H. Balavi və Bakı ofisində çalışan Xaricdə təhsil üzrə direktor Ülviyyə Cəlilzadə təmsil edirdilər. Xəzər Universitetindən görüşdə, həmçinin, rektor Dr. Hassan Niknafs və Beynəlxalq Əlaqələr Şöbəsinin direktoru Turan Cəfərova iştirak edirdilər.

Görüşdə əməkdaşlıq imkanları müzakirə olundu.

MEETING WITH INTERNATIONAL GROUP FOR EDUCATIONAL CONSULTANCY

On April 6, Professor Hamlet Isaxanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, met with representatives of the International Group for Educational Consultancy (IGEC). The meeting took place at the Neftchilar campus of Khazar University.

The two representatives of IGEC included Dr. Derar H. Bal'awi, the regional manager and the Director for Research, Training and Development based in Jordan, and Ms. Ulviyya Jalilzadeh, the manager of the local branch, and Study Abroad Branch Director. Participants from Khazar University also included Dr. Hassan Niknafs, President of the university, and Ms. Turan Jafarova, Director of the International Affairs Office.

Participants of the meeting discussed opportunities for cooperation.



Aprelin 7-də Hökumət Evində Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Elmi, tədris və ədəbi əsərlərin mətnlərində plagiat və onun qarşısının alınması yolları" mövzusunda dəyirmi masa keçirildi. Dəyirmi masa iştirakçıları plagiatın yaranma səbəbləri, hazırda aparılan müəyyən mübarizə tədbirləri və mövcud vəziyyətdən çıxış yollarını geniş müzakirə etdilər.

Dəyirmi masada iştirak edən Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Muxtar Hacızadə çıxışında tədbirin ölkəmiz üçün çox aktual olduğunu, akademik dürüstlüyün təmin olunmasının vacibliyini qeyd etdi, Xəzər Universitetində bu sahədə aparılan müəyyən mübarizə tədbirləri haqqında məlumat verdi.

Tədbir haqqında daha ətraflı bu linklərdən məlumat almaq olar:

http://azpress.az/index.php?lang=az&sectionid=news&id=51346
http://www.butov.az/xeber/sosial/4314-elmi-eserlerin-ogurlanmasina-qarshi-mubarize guclendirilir.html
http://virtualaz.org/bugun/67428
http://edu.gov.az/az/page/9/12290

On April 7, a roundtable discussion entitled "Plagiarism in Scientific, Academic and Literary Texts and How to Prevent It" was held at the Government House of Baku. The event was jointly coordinated by the Copyright Agency of the Azerbaijan Republic and the Ministry of Education. The roundtable covered the factors motivating plagiarism, current measures put in place to prevent it, and further possible solutions.

Dr. Mukhtar Hajizada, Head of the Department of Political Science and International Relations at Khazar University, participated in the discussion and noted the significance of the event for the current situation. He also spoke about anti-plagiarism measures taken at Khazar University and the importance of ensuring academic integrity in our country in order to raise up a society of conscientious citizens.

More details about the event are available at the following links:

http://azpress.az/index.php?lang=az&sectionid=news&id=51346
http://www.butov.az/xeber/sosial/4314-elmi-eserlerin-ogurlanmasina-qarshi-mubarize-guclendirilir.html
http://virtualaz.org/bugun/67428
http://edu.gov.az/az/page/9/12290



BRITISH AMBASSADOR SPEAKS AT KHAZAR ABOUT THE COMMONWEALTH AND 'BREXIT'

On April 8, the Department of Political Science and International Relations of Khazar University hosted the British ambassador to Azerbaijan, H.E. Irfan Siddiq. His speech was mainly dedicated to the Commonwealth of Nations and the discussion of the main principles upon which this intergovernmental organization operates. Mr. Siddiq provided a general overview of the institutions that function within these organizations, including the Commonwealth Secretariat and the Commonwealth Foundation, and elaborated on the purposes and decision-making functions of the Commonwealth Heads of Government Meeting. He then moved on to speak about the British participation in the EU and the upcoming referendum on European Union membership of Britain. The Ambassador also spoke about the main pro and con arguments with regards to the UK's possible withdrawal from the European Union. He wrapped up his speech by mentioning some of the achievements he has made for the progress of the British-Azerbaijani relationship during his term as Ambassador.

While visiting Khazar, H.E. Irfan Siddiq also met with Dr. Hasan Niknafs, President of the University.













"XƏZƏR"DƏ YUBİLEY

Martın 11-də universitetin Mərmər salonunda tədris işləri üzrə prorektor, Azərbaycan Respublikasının Qabaqcıl təhsil işçisi, professor Məhəmməd Nuriyevin 70 illik yubileyi münasibətilə mərasim keçirildi. Aparıcılar – Məzunlarla iş mərkəzinin müdiri Baba Bayramlı və universitetin doktorant tələbəsi Marta Lauri mərasimi açaraq, M. Nuriyevin fəaliyyəti haqqında məlumat verdilər. Universitetin Multimedia mərkəzinin yubilyar haqqında hazırladığı slayd-şou nümayiş etdirildi.

Universitetin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı M. Nuriyevə universitet kollektivi adından təbrik məktubunu oxudu və məktubla birlikdə ona gül dəstəsi təqdim etdi.





Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, rektor Hassan Niknafs çıxış edərək, M. Nuriyevin universitetdəki 20 illik fəaliyyətini yüksək qiymətləndirdilər, onun görkəmli təhsil təşkilatçısı və elm xadimi, tələbkar rəhbər, səmimi və ədalətli həmkar olduğunu qeyd etdilər, ona gələcək fəaliyyətində uğurlar arzuladılar.









İnstitutsional araşdırmalar mərkəzinin direktoru, Azərbaycan Respublikasının Qabaqcıl təhsil işçisi Rafiq Əhmədov, İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, Təhsil fakültəsinin dekanı Elza Səmədova, Xəzər Universitetinin Avrasiya və Orta Şərq Araşdırmaları mərkəzinin müdiri Fərda Əsədov, İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi, Azərbaycan Respublikasının Qabaqcıl təhsil işçisi Firəngiz Nəsirova çıxış edərək, yubilyar haqqında xoş sözlər söylədilər.









C. Xəlilov fakültənin IV kurs tələbəsi Elxan Qasımovun çəkdiyi portreti M. Nuriyevə hədiyyə etdi.

Təhsil fakültəsinin təşəbbüsü ilə tədbir zamanı yubilyar haqqında eksklüziv sorğu keçirildi. Sorğunun nəticələrini fakültənin tədris işləri üzrə dekan müavini Zərifə Əliyeva elan etdi. Yubilyara fakülə adından hədiyyə təqdim olundu.

Tədbirin sonunda M. Nuriyev çıxış edərək, mərasimin təşkilinə görə universitet rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirdi.

Mərasim Musiqi və incəsənət departamentinin hazırladığı konsert proqramı ilə müşayiət olundu.











TƏQDİMAT:

"XARİCDƏ OXUMAQ NƏ DEMƏKDİR ?"

Aprelin 13-də Xəzər Universitetində "Xaricdə oxumaq nə deməkdir?" adlı təqdimat keçirildi. Tədbiri Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açdı.

Sonra "Dünya" məktəbinin hazırda təhsillərini İngiltərədə davam etdirən məzunları Esmiralda Şirinova və Fatimə Xəlilova "Xəzər"in tələbələrinə, İngilis dili və ədəbiyyatı departamentinin müəllimlərinə xaricdə təhsilləri haqqında geniş məlumat verdilər.

Tədbirin sonunda tələbələrin sualları cavablandırıldı.



"ELM ÜÇBUCAĞI"NDA "AVROPANIN İLK UNİVERSİTETLƏRİ"NDƏN SÖHBƏT AÇILDI

Aprelin 10-da İctimai TV-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Elm üçbucağı" proqramının növbəti verilişi oldu. Veriliş "Avropanın ilk universitetləri" mövzusuna həsr olunmuşdu.

Verilişdə universitetin əməkdaşları da dinləyici qismində iştirak edirdilər.

"XÜSUSİ MÜXBİR" VERİLİŞİNDƏ

Aprelin 23-də ANS televiziyasının "Xüsusi müxbir" verilişində ali məktəblərə qəbul sistemi, dünya təcrübəsi və Azərbaycanda vəziyyət, gələcək meyllər kimi məsələlərlə bağlı müzakirə keçirildi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Azərbaycan dili və ədəbiyyatı departamentinin müdiri Vurğun Əyyub verilişin qonağı olaraq, müzakirədə iştirak etdilər, öz rəylərini bildirdilər.

Veriliş aprelin 24-də təkrar nümayiş etdirildi.

MƏZUNUMUZUN İLK FƏRDİ SƏRGİSİ

Xəzər Universitetinin məzunu, gənc rəssam Aydan Bünyatovanın "Qız qalası" qalereyasında "Bax belə" adlı ilk fərdi sərgisi nümayiş etdirilmişdir. A.Bünyatova 2013-cü ildə İqtisadiyyat və menecment fakültəsini biznesin idarə edilməsi itisası üzrə bitirmişdir.

Ann.az saytı aprelin 25-də sərgi haqqında Rüstəm Qasımovun məqaləsini yayımlamışdır. Məqaləni bu link vasitəsilə oxumaq olar: *http://ann.az/az/bakida-aydan-bunyatovanin-ferdi-sergisi-acilib-reportaj* (*Sərgidən geniş material jurnalın gələn nömrəsində dərc olunacaq*).

"XƏZƏR"İN KAMERA ORKESTRİNİN MUSİQİ KOLLECİNDƏ KONSERTİ

Aprelin 25-də Xəzər Universiteti Kamera orkestrinin Asəf Zeynallı adına Musiqi Kollecində geniş konserti oldu. Konsert universitetin 25 illiyinə həsr olunmuşdu. Konsertdə universitetin və kollecin rəhbərliyi, kollecin müəllim və tələbələri iştirak edirdilər.

Kollecin direktoru Nazim Kazımov tədbiri açaraq, qonaqları təqdim etdi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı universitetin mədəniyyət və incəsənət sahəsindəki fəaliyyəti haqqında iştirakçılara geniş məlumat verdi.

Universitetin Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadiqovanın rəhbərliyi ilə Kamera orkestrinin ifasında Avropa və Azərbaycan bəstəkarlarının əsərləri səsləndi. Solist Xəzər Universitetinin magistr tələbəsi Elçin Feyzullayev idi.

Konsertdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak edirdi.

Sonda N. Kazımov konsertə görə Xəzər Universitetinin rəhbərliyinə, universitetin Musiqi və incəsənət departamentinə, orkestrin üzvlərinə təşəkkürünü bildirdi və universitetə hədiyyə təqdim etdi.

Kamera orkestrinin universitetin 25 illiyinə həsr olunan silsilə konsertləri davam edəcək.



"HƏYAT DƏRSİ" PROQRAMI

HAMLET İSAXANLI: "SOKRAT DEYİRDİ Kİ, İNSANLAR PİSLİYİ PİS OLDUQLARI ÜÇÜN ELƏMİRLƏR..."

Aprelin 12-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı APA TV-nın "Həyat dərsi" proqramının qonağı oldu. H. İsaxanlı ilə jurnalist Qərənfil Xəlilovanın söhbətini təqdim edirik.

- Məni həmişə bir sual maraqlandırır. Ümumiyyətlə, riyaziyyatçıların həyata baxışı, məntiqi təfəkkürü digərlərindən fərqlidir. Sizcə, riyaziyyatçı olmaq – bu, genetik xüsusiyyətdir, yoxsa necə?

- Mən düşünürəm ki, hər insanın həyata baxışında peşəsinin təsiri var. Riyaziyyat qeyri-adi bir peşədir, çünki bir tərəfdən mücərrəddir, insanlar ondan qorxurlar, digər tərəfdən isə riyaziyyat təbiətin dilidir. Yəni riyaziyyat olmasa, nə fizik, nə kimyaçı, nə də geoloq təbiəti öyrənə bilməz. Təbiətin qanunları, təbiətdəki harmoniya riyazi düsturlarla ifadə olunur. Ona görə də, riyaziyyat həm lazımlı bir dildir, həm də çox çətindir. Bilmədiyin əcnəbi dil kimi. Təsəvvür edin ki, birdən-birə yapon dili öyrənmək istəyirsiniz, sizə çox qəribə gələcək. Çünki doğma dilindən çox-çox fərqli bir şeydir. Əslində, insanların danışdığı dildən başqa daha universal iki dil var – riyaziyyat və musiqi. Musiqi hisslərimizin dilidir, mütləq əksəriyyət o dili anlayır və sevir. Riyaziyyatı isə anlayanlar da azdır, sevənlər də; bunun başlıca səbəbini riyaziyyatı dərk etmənin çətinliyində görürlər. Amma riyaziyyatı öyrənib mahiyyətini dərk edəndən sonra onun qeyri-adi dərəcədə gözəl bir elm, gözəl bir dil olduğunu görürsən. Riyaziyyatın gözəlliyini duyandan sonra ona aşiq olursan, onun əsiri olursan. Təəssüf ki, musiqidən, ədəbiyyatdan, incəsənətdən fərqli olaraq, o gözəlliyi çox insanlar görə bilmir, çünki onu görmək üçün peşəkar bir baxış, ciddi bir məktəb keçmək tələb olunur.

Kim riyaziyyatçı ola bilər, niyə olur? Hər halda, bir riyazi qabiliyyət deyilən, yəni, mücərrəd düşüncəyə, məntiqə, məntiqlə fantaziyanı birləşdirə bilən bir təxəyyülə ehtiyac duyur riyaziyyat. O olmasa, riyaziyyatçı olmaq olmur. Görünür, insanın içində, genlərində, qanında o şeylər olmalıdır. Amma, bununla bərabər, yaxşı riyaziyyatçı olmaq insanın inkişafından, onun müəllimindən, məktəbindən, hansı elmi məktəbə düşməsindən də çox asılıdır. Yəni təməl olan bir təxəyyül, bir quruluş varsa, orada bir riyazi bina qurula bilər. O riyaziyyat binasını quran zəhmətdir. Bu ikisi birləşməsə və bu quruculuq işində ehtiras olmasa, nə riyaziyyat, nə də digər dəqiq elmlərdə ciddi uğur qazanmaq olmur.

- Pifaqor deyirdi ki, riyaziyyatın vəzifəsi həyatda olan nizamsızlığı, qarmaqarışıqlığı nizamlı şəkildə təqdim eləməkdir. Siz də deyirsiniz ki, riyaziyyat mənə dünya qanunlarını dərk eləməkdə kömək elədi. Bu, bütün riyaziyyatçılaramı aiddir (riyaziyyatçı avtomatik olaraq dünya qanunlarını dərk edir), yoxsa fərqli bir keyfiyyətdirmi?

- Həyatın qanunauyğunluqlarını daha dəqiq dərk etmək məsələsi, düşünürəm ki, bütün riyaziyyatçılara aiddir. Düzdür, indi riyaziyyat çox geniş bir elm olub, çox şaxələnib və çox dərinə gedib. Ona görə, riyaziyyatın bir sahəsi ilə məşğul olan adam ola bilər ki, o biri sahəni heç yaxşı anlamasın; yəni o biri sahənin əlifbasını bilsin, amma dərin qanunlarını bilməsin.

Bütün riyaziyyatçıları birləşdirən, dediyim kimi, bu dərin məntiq, fantaziya, gözəllik axtarışıdır. Gözəl riyazi qanun dediyimiz necə axtarılır? Riyazi qanunlar təbiətdə mövcud olan tənasüb, bir harmoniya və bir ahəngin, gizli bir gözəlliyin aşkara çıxarılması deməkdir. Bu baxımdan bütün riyaziyyatçılar bir-birinə bənzəyirlər. Baxmayaraq ki, onlar bir-birindən çox fərqli sahələrlə məşğul ola bilərlər. Həndəsə, riyazi analiz, cəbr, riyazi fizika fərqli sahələr olsalar da, onlar arasında xüsusi münasibətlər, onları bir-birinə bağlayan zəngin tellər var. Onları birləşdirən vahid bir riyaziyyat evi, böyük bir gözəllik dünyasıdır.

- Sizin həyat yolunuzu öyrənəndə məlum olur ki,

siz yenilikçi insansınız, həmişə nəsə yeni bir model yaratmaq istəyirsiniz və ona da nail olursunuz. Xəzər Universiteti sizin şah əsəriniz sayıla bilər, belə demək mümkünsə. Mən burda bir şeirinizdən nümunə gətirmək istəyirəm. Deyirsiniz ki,

İlham pərim nur çiləd
Göy ümmanın qırağında.
"Xəzər""imi həkk elədi
Ömrümün şah varağında.

Mən nəsə belə düşünürəm ki, Hamlet İsaxanlı arzulardığı hər şeyi bura və ya burda tətbiq etmək istəyib və bu yolda uğur qazanıb. Bunu araşdırmağa belə ehtiyac yoxdur. "Dünya" məktəbini də yaratmısınız, Avrasiya Akademiyasını da yaratmısınız, Beynəlxalq işbirliyi qurmusunuz...Bu, zamanın tələbidir, yoxsa içinizdən gələn bir şeydir? Onu bilmək istəyirəm.

- Xəzər Universiteti, "Dünya" məktəbi, Avrasiya Akademiyası və s. kimi fərqli modellər yaratmaq, yeniliyə can atmaq məsələsi xarakterdən irəli gəlir, yoxsa zamanın tələbindən? Düşünürəm ki, hər ikisindən. Mənim çox xəyallarım olub, bu gün də var, arzularım var. Həyata keçməyən arzularım da çoxdur. Ola bilər o qədər dərin ağıllı adam deyiləm, ona görə həmişə istəyirəm ki, yeni bir iş görüm və ya bir işi qurum. Amma, zaman və mühit imkan verməsə, düşündüyün işlərin bir hissəsini həyata keçirə bilmirsən. Bəzən mühiti də bir az dəyişdirməyə məcbur olursan. Yəni, bir yerdə bir ev tikmək istəyirsənsə, sən o evin ətrafını da düzəltmək istəyirsən, bir bağ salırsan, hasar çəkirsən... Mühit göydən düşmür, mümkündür ki, sənin fikrinə tam uyğun olmasın. Amma, bununla bərabər, xəyalında olanları həyata keçirmək üçün sənin bir gücün, gerçək planın, əqli və ya maddi köməyin olmalıdır. Elə proqram var ki, mən onu tək həyata keçirə bilmərəm, onu bütöv nəsil həyata keçirməlidir. Amma, fikir beynimə gələndə ilk görünən onun işığı, cazibəsi olur, məni gözləyən çətinliklər deyil...Nə edə bilərəm?

Elə şeylər də var ki, mən əmək sərf edərək, təşkilatçılıq gücü tətbiq edərək və o işə olan ehtirasımdan ilham alaraq "irəli" deyirəm və düşündüyümü həyata keçirə bilirəm. Digər ideya və istəklər isə ya beynimin içində qalır, ya da bir vərəq kağızda, ya zamanını gözləyir, ya da saralıb-solur...

- Proqramımız "Həyat dərsi" adlanır. Bilmək istərdim, Hamlet İsaxanlı xeyirxahları çox olub, yoxsa bədxahları və o, bədxahların maneəsindən necə qurtarıb?

- Mənim ən çox sevmədiyim şeylərdən biri şikayət etməkdir. Şikayət zəiflik, acizlik əlamətidir. Yəni, mən nəyisə eləmək istəyirəm, ətrafdakılar bunu qoymur, buna mane olurlar. Başlayırsan əsasən ətrafdakıları qınamağa. Ətraflı düşünsən, özünü də qınamalısan ki, bəlkə sənin gücün çatmayan işə girişibsən, bəlkə yaxşı düşünməyibsən, bəlkə bu deyil, başqa işlə məşğul olmalısan. Ona görə, inanın, səmimi deyirəm, filan bədxahlarım var, filan düşmənlərim var deyə xüsusi görüşüm və baxışım yoxdur. Təbii ki, insanlar olub ki, mənim gördüyüm işi bəyənməyiblər, hətta bir az mane olublar və olacaqlar da, mən bunu təbii qəbul edirəm. Mən onları nə mənada qınamıram? Yəqin onlar elə fikirləşirlər ki, onlar düzdür, mən səhv edirəm, mənim qabağımı kəsmək lazımdır. O adam ola bilər ki, səmimi olaraq bu cür düşünür, onun baxışı elədir. Sokrat deyirdi ki, insanlar pisliyi pis olduqları üçün etmir, sadəcə, elə fikirləşirlər ki, düzgün edirlər. Maneələri aşmaq üçün onların mahiyyətini anlamaq, onun üstünə getmək və ya onun yanından keçmək lazımdır; yolumuza bir dağ və ya bataqlıq çıxanda nə edirik?!

Elə işlər var ki, sən onları tək görə bilməzsən. Şeiri tək yazmalısan. Şeiri ya hekayəni adətən iki adam oturub birlikdə yazmırlar. Amma, mən universitet qururamsa, təkbaşına qura bilmərəm. İdeya yaranır, onu bərkidirsən, plan qurursan, sonra insanları cəlb eləməlisən, o insanlar sənin ideyanı bəyənməli, dəstəkləməli və sənin lə bərabər çalışmalıdırlar. Onlara minnətdar olmalısan. Onlar bu mənada mənim xeyirxahlarımdır, çünki mənimlə birlikdədirlər. Mənim irəli sürdüyüm ideyanın yanındadırlar. Bu ideyanın həyata keçməsində onların da rolu olmuşdur.

- Mən düşünürəm - bəlkə də səhv düşünürəm, siz mənim səhvimi düzəldərsiniz - insan, nə yaşda olur olsun, istəyir ki, ondan güclü bir adam onun arxasında olsun. Bu, ola bilər həyatda olmayan adamdır- elə də ola bilər- və yaxud da bir filosofdur, onun fikirlərindən bəhrələnmək, ondan öyrənmək istəyirsən. Sizin də bu gün öyrəndiyiniz hər hansı bir mənbə varmı ki, siz ondan həmişə qidalanırsınız, o bitmir?

- Mən riyaziyyatçı kimi yetişdiyim barədə düşünəndə orta məktəbdə, ali məktəbdə, aspiranturadakı bəzi müəllimlərimi, bəzi kitabları və bəzi məşhur alimləri – dünyada olan və olmayanları yada salıram. Son 20-25 ildə çox məşğul olduğum, fəaliyyət göstərdiyim və ən çox yazdığım sahə mədəniyyətlər tarixi, elm tarixi, fəlsəfə tarixi, ədəbiyyat, dil, ümumiyyətlə, zəka tarixi və ideyalar tarixidir. Bir var siyasi tarix ki, hökumətlər, ordular, çevrilişlər, savaşlar haqqındadır, bu barədə eninə-uzununa hər yerdə yazırlar. Amma bir də var ki, cəmiyyət, düşüncə, elm, mədəniyyət hansı yollardan keçdi, necə oldu ki, biz bu günə gəldik. Mən bu sahələri öyrənir, araşdırır və bu barədə danışıram, yazıram. Belə deyək ki, riyaziyyatdan sonra bu sahələr üzrə mütəxəssisəm. Ən qədim dövrlərdən, yazının başlanmasından bu günə qədər böyük fikirlər, böyük mütəfəkkirlər olub. Orijinal fikirlər olub, o fikirlər üstüstə toplanıb ki, onu öyrənməli və sonrasını düşünməli oluruq. Beləliklə, mən birinci növbədə tarixin yetişdirdiyi və bu gün həyatda olmayan nəhənglərə borcluyam və minnətdaram. Çünki, onlardan öyrənmişəm, həmişə öyrənəcəyəm və həmişə də hiss

edirəm ki, öyrəndikcə, bir tərəfdən zənginləşirsən, digər tərəfdən də başa düşürsən ki, nə qədər çox şeyləri sən bilmirsən. Sənin bildiyin, dəryada bir damladır. Bir anlığa belə təsəvvür edək, bir var çökəkdə durub baxırsan ətrafa, bu halda ancaq yaxın ətrafı görürsən. Bir az hündür təpənin üstünə çıxırsan, ətrafı daha çox görürsən. Dağın zirvəsinə qalxırsan və göz görən qədər ətrafı görə bilirsən. Bilik də o cürdür, nə qədər çox oxusan, düşünsən, yaradıcı fəaliyyət göstərsən, o qədər çox görürsən və görürsən ki, görmədiyin daha çoxdur, bilmədiyin daha çoxdur.

- Əslində bu, hər bir alimin xeyrinə olan bir şeydir. Daha da çox öyrənmək istəyir...

- Bəli, alimlər, bir qayda olaraq öyrənməkdən, bilməkdən, araşdırma aparmaqdan həzz alırlar. Ən nəhənglər də bilmədiklərini bilir və adətən, təvazökar olurlar; bu, insanı insan edən bir hissdir. Yekəxanalıq, mənca, nisbətən cılız insana xas olan bir şeydir, böyük görünmək istəyir. Amma insanın tarixdəki və ətrafındakı nəhəngləri görəndə, "mən nə qədər az bilirəm, nə qədər az iş görmüşəm" deyə düşünməsi təbii görünür...

Mən Moskva Dövlət Universitetində aspiranturada oxuyanda, orada məşhurlar vardı, 20-ci əsrin klassik riyaziyyatçıları, riyaziyyatı yaradanları! Dərslərinə, seminarlarına gedirdim. Onlardan ən çox eşitdiyim söz "bilmirəm" idi, "mən bunu bilmirəm, filankəsdən soruşun, o, məndən yaxşı bilir". Sovet Elmlər Akademiyasının üzvü olan riyaziyyatçı deyirdi ki, bu aspirant o problemlə məşğul olur, o, məndən daha dəqiq fikir söyləyə bilər. Bu, gerçək alimə xas olan xüsusiyyətdir. O cür insanlarda göstəricilik ola bilməz, onlarda aşağılıq kompleksi də yoxdur ki, güclü görünmək istəsinlər, yəni, insan bütövdür. Bir insansan, bəzi şeyləri bilirsən, digər daha çox şeyləri bilmirsən, həmişə şagirdsən, həmişə təbiəti, insanları, cəmiyyəti öyrənirsən.

- Öyrənmək heç vaxt bitmir. Hamlet müəllimin maraqlı bir düsturu varmış, uğur düsturu demək olar. Çox xoşuma gəlib, onu çox bəyənmişəm. "Peşəkarlıq, planlaşdırma, işləmək ehtirası və möhkəm iradə". Çox gözəl düsturdur, hədəflərə çatmaq yoludur...

- "Peşəkarlıq, planlaşdırma, iş görmək ehtirası üstəgəl möhkəm iradə bərabərdir uğur" düsturu ilə mən qeyri-adi bir şey deməmişəm, sadəcə fəaliyyət prosesini izah etmişəm. Birincisi, insanda bir axtarış, bir nöqtəyə çatmaq ehtirası var. Məsələn, sprinter deyir ki, mən 10 saniyəyə 100 metri qaçmalıyam. Bu, ciddi bir məqsəddir, bir an belə itirməməlisən, burada qələbə çalmaq ehtirası, yarış ehtirası, liderlik ehtirası var. Bu, insanı irəliyə aparır. Digər tərəfdən, qabağında bir maneə varsa, sən o maneəni necə aşacaqsan? Planlaşdırmaq, peşəkarlıq və iradənlə. Həyatımız maneələrdən, problemlərdən, onları aşmaq cəhdindən ibarətdir. Riyaziyyat özü problemləri həll etmək elmidir. Orta məktəbdən başlayaraq məsələ, misal həll etməlisən. Məsələ, misal gah asan, gah çətin olur, gah da çox çətin olur, müəllim də həll edə bilmir, istedadlı şagirdinə dönür ki, gəl, görək bunu necə həll edəcəyik. Çətin məsələlərin həllinə girişəndə, ciddi maneələri aşanda bəzi insanlar ruhdan düşə bilir. Amma iradəli və peşəkar insan, ehtiraslı insan deyir ki, bu da növbəti bir problemdir, mən onu həll etməliyəm. Həll etmək üçün müxtəlif üsullara əl atırsan, bir şey çıxmasa, özün bir metod tapırsan, yaradırsan, həll edib məqsədə doğru gedirsən.

Peşəkar olmayan da məqsədinə çata bilir, deyirsən. Düzdür. Amma o, dümdüz yolla gedir, ona kömək edirlər, əlindən tutub aparırlar, elə şeylər olur. O, həyatın bəzi maraqlı tərəflərindən xəbərsiz olur. Bilirsiniz, dünyada ideal cəmiyyət olmayıb, lap qədimlərdə də. Çox fərqli mədəniyyətlər, dövlətlər olub (işimizin biri də onları öyrənməkdir). Məsələn, qədim Yunanıstan deyirik. Sokrat, Platon, Aristotel, Arximed kimi nəhənglər yetişib orda. Biz Yunan dövrünə mədəniyyətin beşiyi kimi baxırıq. Amma orda o qədər haqsızlıqlar olub ki... Məsələn, Sokrat kimi filosofu demokratik quruluşda səsvermə yolu ilə ölümə məhkum ediblər. O zaman da istedadsız adamları irəli çəkmək, istedadlıya mane olmaq istəyənlər olub. Yəni, ideal cəmiyyət olmayıb.

- Belə bir məntiq də mövcuddur: sanki istedadsızların qabağa getməyi daha asan olur, nəinki istedadlıların...

- İstedadlı, ehtiraslı insan qarşısına kiçik deyil, böyük problemlər qoyur. Sanki dağa çıxırsan. Bir var təpəyə çıxırsan, bir də var güclü alpinist deyir ki, mən ən yüksək zirvələrə qalxmalıyam. Əvvəl Qafqaz dağlarına gedir, sonra Himalaya və s. Çünki o, zirvələri fəth etməkdən sonsuz ləzzət alır. Yəni istedadlı, güclü insan qarşısına böyük problem qoyur və onun həlli ilə məşğul olur. Ona görə uğur da, uğursuzluq da o problemin ətrafında olur. Qarşısına qeyri-adi dərəcədə böyük bir iş görmək məqsədi qoyur, o işi tam yerinə yetirə bilməsə də (zirvəyə doğru gedəndə hamışə çıxa bilmirsən ki...), o prosesdə heç nə itirmir, o qazanır, çünki zirvəyə, ucalığa doğru yol gedir, yeni hisslər keçirir, yeni cığırlar açır.

Alpinizmdən danışdıq. Mən dağa çıxmaqla məşğul oluram, bu işi bir qədər bilirəm, yeri gəlmişkən prosesi izah edim. Everest və ya ondan kiçik zirvəyə çıxmaq üçün tək bir insan deyil, bir komanda gedir. Onların bir hissəsi bir yerdə qalır, ordan yuxarıya qalxmır, yuxarı gedənlərə müəyyən yardım etməyə çalışırlar (məsələn, ərzaq və s. göndərirlər). Bir qədər yuxarıda ikinci bir dəstə də dayanır, düşərgə salır, zirvəyə qalxanlarla zəruri əlaqəni təmin edirlər. Zirvəyə bir neçə adam, bəzən cəmi bir adam çatır. Bütün komanda o lider üçün işləyir, çünki o, zirvəni fəth etmə işində komandanın ən dözümlü, ən qabiliyyətli üzvüdür.

- Hamlet müəllim, siz çoxşaxəli fəaliyyətlə məşğulsunuz. Hesab edirəm ki, bu, böyük hünərdir. Hamlet İsaxanlı imicində bu mühüm yer tutur. Siz

vaxtınızı necə bölürsünüz və sağlamlığınızı necə qoruyursunuz?

- Çoxşaxəli fəaliyyətlə məşğul olmaq, nə qədər paradoksal görünsə də, ciddi bir hünər deyil. Belə adamlar çoxdur. Uşaq vaxtından çox sahələrlə maraqlanırsan. Mən sadəcə, onların hamısı ilə maraqlanırdım və öyrənirdim, görünür ki, hər sahədə maraqlı bir şey görürdüm. Bu bir qabiliyyətdirmi, bilmirəm. Məsələn, riyaziyyatı qalın-qalın, cild-cild kitabları oxuyaraq öyrənə bilmirsən. Gərək bir hissəsini öyrənəndən sonra qalan hissəni özün sərbəst başa düşməyə, həll etməyə çalışasan. Özün özünü sınayasan ki, bu yolu kimlər keçiblər, bəlkə mən də həmin yolu özüm keçə bilərəm. Beləcə bu üsul sənə bir vərdişə çevrilir: qarşıya çıxan problemi özün həll et. Bu halda öyrənmə sürətin artır, dərinə baxa bilirsən, dərində çox şeylər görürsən...

Dəqiq elmlərlə yanaşı tarix, fəlsəfə, dil, ədəbiyyat, poeziya kimi müxtəlif sahələrlə məşğul olanda, insan həm də dincəlir. Misal üçün, riyaziyyat və fizika ilə məşğul olandan sonra gedib tarix oxuyanda, sanki dincəlirsən, sanki oturub çay içmək istirahət etmək kimi bir şey olur. Sonra ondan keçirsən şeirə, ədəbiyyata, o da başqa bir istirahət növüdür sanki. Mühit dəyişir, məsələn, meşədən çıxırsan çəmənə düşürsən, dərəyə, oradan dağa gedirsən, arana gedirsən, bulaqdan su içirsən, gəzirsən, ətrafı seyr etmək, düşmək, qalxmaq, gəzmək səni yormur. Təbiətin hər tərəfini, gözəlliklərini gördükcə cuşa gəlirsən. Müxtəlif işlərlə məşğul olmaq adamı yormur, əksinə, adam həzz alır.

- Bəs sağlamlığınızı necə qoruyursunuz?

- Sağlamlığımı qorumaqla ciddi məşğul olmuram. Sadəcə, uşaq vaxtından idmanı çox sevmişəm və dünyanı dolaşan həyat arzulamışam. Həmişə futbol oynayırdım, güləşmişəm. Şahmat indi də dəlicəsinə sevdiyim oyundur. Voleybolu sevirəm. İndi də komanda ilə yığışırıq, hər həftə oynayırıq .

Yəni dünyadan çox şey istəmirsən, əlində olanlar səni qane edir, həzz ala bilirsən onlardan. Kitab oxuyursan, həzz ala bilirsən. Bir yerə gedirsən, yeni bir şey öyrənirsən, həzz alırsan. Balaca bir qaralama edirsən, ya elmi bir şey, ya bədii, həzz alırsan. Biz Avrasiya Akademiyasını qurduq və bu yaxınlarda onu ictimaiyyətə təqdim etdik. Beş təsisçi – Azərbaycan, Türkiyə və ABŞ vətəndaşı gördü bu işi. Təsisçilərdən biri Halil İnancık çox görkəmli tarixçidir, Osmanlı dövrünün məşhur tədqiqatçısıdır, təqribən 22 il Amerikada tanınmış universitetlərdə işləyib. 100 yaşı var, 1916-cı ildə anadan olub. Lap yaxınlarda bir dəfə də görüşdük, başı çox aydın, 2-3 ildən bir ya monoqrafiya, ya dərslik kimi bir kitab yazır, məqalə yazır, doktorantlara evində dərs deyir, hərəkətində bir az məhdudiyyət var, amma qalan hər şey yerindədir. Düşünürəm ki, yaradıcı həyat keçirmək özü idman etmək kimi bir şeydir, idmanın bir növüdür. Sənin beynin idman edir, hüceyrələr hamısı işləyir, beynin hüceyrələri işləyən zaman digər orqanlara komanda verilir, qan daha yaxşı işləyir, yəni insanın içində bir ahəng qərar tutur.

Sağlamlıq üçün xüsusi sistemim yoxdur, sadəcə, bir həyat tərzim var. Mənəvi və fiziki tərəflər - sanki ikisi bir-biri ilə qovuşur.

- Hamlet müəllim, siz deyirsiniz ki, riyaziyyatda bir dərin poeziya var, simfonik musiqini xatırladır, bəlkə də poeziya ilə məşğul olmağınız həm də ona görədir. İstəyirəm ki, bu günə uyğun bildiyiniz bir şeir ilə tamamlayasınız görüşümüzü.

- Olar. Mən xeyli şeylər edə bilməmişəm, həmişə onlar haqqında düşünürəm və ümid edirəm ki, onlardan bəzilərini edəcəyəm. Nədir onlar? Şeirdə demək istəyirəm.

Bu dünyaya nə gətirdim?
Bu dünyada nə qoymuşam?
Nə bir işi tam bitirdim,
Nə həyatdan tam doymuşam...
Hey çalışdım, hey itirdim,
Yorulmadım, uf demədim...
Nə qazandım, nə götürdüm?
Nisgil qədim, sual qədim.

Səpdiklərim cücərsə də,
Tufanlara sinə gərmiş.
Haqq-ədalət ölməsə də,
Sarsılarmış, incələrmiş...
Doğru yolun hökmü ağır,
Addımbaşı döngələrmiş...
Qəm yağışı və çal-çağır
Bir-birinə tən gələrmiş...

Və ya:

Günəşin saçını hörə bilmirik,
Zalımın dərsini verə bilmirik.
Həyatın üzü çox tanış olsa da,
İçini dərindən görə bilmirik.

Uzaq ulduzları saya bilmirik,
Yaxın sevgiləri duya bilmirik.
Həyat çox şirindir, ömür çox qısa,
Nə qədər yaşasaq, doya bilmirik.

http://news.lent.az/news/239157
http://www.azadliq.az/xeber/73114/hamlet-isaxanli-insanlar-pisliyi-pis-olduqlari-ucun-elemirler/





"ERNST AND YOUNG" ŞİRKƏTİ TƏQDİMAT KEÇİRDİ

Martın 30-da Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə "Ernst and Young" (EY) şirkətinin təqdimatı oldu. Təqdimatda Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbələri iştirak edirdilər. "Ernst and Young" şirkətinin İnsan resursları şöbəsinin müdiri Samirə Şabanova tələbələrə şirkət haqqında və təcrübə proqramları barədə geniş məlumat verdi.

Təqdimatın sonunda tələbələrin sualları cavablandırıldı.

ERNST AND YOUNG PRESENTATION

On March 30, Khazar University's Career Center organized a presentation of the Ernst and Young Company for students of the School of Economics and Management. Samira Shabanova, Director of the Human Resources Department of Ernst and Young, spoke to the students about the company and about internship programs.

Students' questions were answered at the end of the event.



"MÜNAQİŞƏLƏRİ HƏLL ETMƏKDƏ ÜNSİYYƏTDƏN DÜZGÜN İSTİFADƏ QAYDALARI"

Martın 31-də Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə "Uğur" İnkişaf Mərkəzinin psixoloq-konsultantı Nərgiz Qaravəliyeva tələbələr üçün təlim keçirdi. O, münaqişələri həll etməkdə ünsiyyətdən düzgün istifadə qaydaları - empatiya, empatiyadan istifadə etmək yolları, sözsüz ünsiyyətin - bədən dilinin rolu, ictimai qurumlarda (iş yerlərində, məktəb, universitet və s.) ünsiyyət və münaqişələrin səbəbi, münaqişələri effektli həll etmək metodları haqqında ətraflı məlumat verdi.

Sonda tələbələri maraqlandıran suallar cavablandırıldı.

Təlim sonrakı üç həftə ərzində də (həftədə bir dəfə olmaqla) davam etmiş və başa çatmışdır.



ƏCNƏBİ TƏLƏBƏLƏR BİRLİYİ YARADILACAQ

Martın 30-da Xəzər Universitetinin Kamerun, Çexiya, Qana, Pakistan, Fələstin və Zimbabvedən olan bir qrup əcnəbi tələbəsi Beynəlxalq Tələbələr Birliyinin yaradılmasını müzakirə etmək üçün universitetin Beynəlxalq Əlaqələr Şöbəsinin ofisində toplandılar.

Xəzər Universitetində təhsil alan bütün əcnəbi tələbələri birləşdirən birliyi yaratmaq fikri bu ilin yaz semestirinin əvvəlində keçirilən oriyentasiya sessiyasında təklif edilmişdi. Əcnəbi tələbələrin növbəti görüşləri birliyin strukturu və əsas faaliyyət istiqamətləri haqqında qərarların verilməsinə həsr olunacaq.

INTERNATIONAL STUDENTS TO FORM UNION

On March 30, a group of international students representing various countries including Cameroon, Czech Republic, Ghana, Pakistan, Palestine, and Zimbabwe gathered to discuss the creation of the International Students' Union.

The idea to create an association uniting all international students of Khazar University was first suggested during the orientation session held earlier this year, in the beginning of the spring semester. Future meetings of the students will be dedicated to deciding on the structure and main activities of the union.

The meeting was held at the International Affairs Office at the Neftchilar Campus of Khazar University.

DEPARTAMENT MÜDİRİMİZƏ DOSENT ELMİ ADI VERİLMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 29 fevral 2016-cı il tarixli qərarı ilə Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqovaya musiqi və incəsənət kafedrası üzrə dosent elmi adı verilmişdir.

Martın 31-də Ali Attestasiya Komissiyasında Z. Sadıqovaya dosent diplomu təqdim olunmuşdur. Əməkdaşımızı təbrik edir, ona yeni uğurlar arzulayırıq.



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASI

qərarı ilə

Zülfiyyə Şükür qızı Sadıqovaya

DOSENT

elmi adı verilmişdir


THE SUPREME ATTESTATION COMMISSION ATTACHED TO THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN

confers on

Zulfiyya Shukur Sadigova

the academic title of

ASSOCIATE PROFESSOR

TƏHSİL NAZİRLİYİNDƏ SEMİNAR

Xəzər Universitetinin professor-müəllim heyəti Təhsil Nazirliyi tərəfindən martın 29-31-də təşkil olunmuş "Azərbaycan Kvalifikasiyalar Çərçivəsi əsasında fənn üzrə təlim nəticələrinin yazılması" adlı seminarda iştirak etdi. Seminarın əsas məqsədi texniki, biznesin idarə olunması, müəllim hazırlığı ilə bağlı ixtisaslar üzrə fənn proqramlarının hazırlanması, tələbə biliklərinin qiymətləndirilməsinin əsas anlayışları və prinsiplərini təqdim etmək və tələb olunan bacarıqları inkişaf etdirmək idi.

Təlim Estoniya və Finlandiya ali təhsil sahəsi üzrə ekspertlər tərəfindən aparılırdı.

Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olundu.

"DÜNYA"DAN YAZDI

Martın 31-də **"İnterfaks-Azərbaycan"** İnformasiya Agentliyinin rəsmi İnternet səhifəsində Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbində keçirilmiş tədbir haqqında xəbər yayımlanmışdır. Tədbir sovet fiziki, akademik Sergey Vavilovun anadan olmasının 125 illiyinə həsr olunmuş və Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin "Alimlər - uşaqlara" layihəsi çərçivəsində həyata keçirilmişdir.

Xəbəri tam şəkildə bu link vasitəsilə oxumaq olar:
http://interfax.az/view/668861/az

ESFIDIP LAYİHƏSİ İLƏ ƏLAQƏDAR İCLAS

Aprelin 1-də Xəzər Universitetinin Avropa Birliyi Araşdırmaları Mərkəzində ESFİDİP (Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması) layihəsi ilə bağlı iclas keçirildi. İclasda Xəzər Universitetinin rektoru Hassan Niknafs, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, Əlilliyi olan Tələbələr üçün Mərkəzin koordinatoru Rima Məmmədova, dekan və dekan müavinləri, digər qurumların əməkdaşları iştirak edirdilər. Görüş zamanı martın 16-da "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsi çərçivəsində Xəzər Universitetində əlilliyi olan tələbələrə dərs deyən müəllimlər və digər müəllim heyəti üçün keçirilmiş təlim-seminarın nəticələri müzakirə olundu.

İclas zamanı ESFİDİP layihəsi çərçivəsində daha iki təlim-seminarın (inzibati işçilər və tələbələr üçün təlim-seminarlar) keçirilməsi və Xəzər Universitetində əlilliyi olan tələbələrin universitet ərazisində maneəsiz hərəkət etmələri üçün binanın infrastrukturunda müəyyən dəyişikliklərin edilməsi də müzakirə olundu.

Daha sonra ESFİDİP layihəsinin meneceri və yerli tərəfdaşlar (Azərbaycan Dövlət İqtisad Universiteti, Naxçıvan Dövlət Universiteti və Gəncə Dövlət Universiteti) arasında *Skype* vasitəsilə görüş təşkil olundu. Görüş zamanı tərəfdaş universitetlərdə dərs deyən müəllim heyəti, inzibati işçi və tələbələr üçün təşkil olunmuş və təşkil olunacaq təlim-seminarlar haqqında müzakirələr keçirildi. Universitetlər keçidikləri təlim-seminar haqqında bir-birlərinə hesabat verdilər və gələcək təlim-seminar haqqında planlarından danışdılar.

MEETINGS FOR ESFIDIP PROJECT

On April 1, a meeting of the "Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) TEMPUS project was held in Khazar University's European Union Studies Center. Dr. Hasan Niknafs, President of the University; Professor Mahammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs; Dr. Isakhan Isakhanli, Vice President for Administration and Student Affairs; Rima Mammadova, coordinator of the Center for Students with Disabilities; deans and assistant deans, and other faculty members participated in the meeting.

During the meeting, participants discussed the training event that was held at Khazar University for instructors on March 16th within the framework of the ESFIDIP project.

Meeting participants also discussed two more training seminars that have been planned for staff members and students in the near future as well as the necessary changes to facilities' infrastructure to accommodate students with disabilities.

Then the ESFIDIP project manager and local partners (Azerbaijan State Economics University, Nakhchivan State University and Ganja State University) had a Skype meeting in which they discussed training seminars for students, faculty and staff members. Universities gave each other reports on their training events and planned future events.



XƏZƏR UNİVERSİTETİNİN "DÜNYA" MƏKTƏBİNDƏ TƏQDİMATI

Aprelin 5-də "Dünya" məktəbində İB proqramında təhsil alan şagirdlər üçün Xəzər Universiteti haqqında təqdimat keçirildi. Təqdimat universitetin Beynəlxalq əlaqələr şöbəsi tərəfindən təşkil olunmuşdu.

Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs iştirakçıları salamladı və öz universitet təcrübələrini bölüşmək üçün dəvət olunan əcnəbi tələbələrə söz verdi. Kamerun, Qambiya, Hindistan, İran, Nigeriya və Pakistandan olan tələbələr "Xəzər"dəki təhsil təcrübələrindən və təhsillərini davam etdirmək üçün bu universiteti seçmək səbəblərindən danışdılar. Qonaqlar arasında Polşadan olan tədqiqatçı Yuliya Krаycarz da var idi.

Beynəlxalq Əlaqələr Ofisinin direktoru Turan Cəfərova Xəzər Universiteti, fakültələr, yerli tələbələrə təklif olunan proqramlar, həmçinin resurslar, laboratoriyalar, xidmətlər və tədbirlər haqqında danışdı. İştirakçılara Xəzər Universitetinin yerli, regional və beynəlxalq reytinqlərdə tutduğu yerlər, beynəlxalq əməkdaşlıqları, tələbələr üçün təhsil və mübadilə imkanları barədə geniş məlumat verildi.

Təqdimat sual-cavab sessiyası ilə başa çatdı. İştirakçılara Xəzər Universitetinin təbliğat materialları verildi.







PRESENTATION OF KHAZAR UNIVERSITY AT DUNYA SCHOOL

On April 5, a presentation about Khazar University was delivered for the IB program students of Dunya School. The presentation was organized by the International Affairs Office and took place at Dunya School.

Dr. Hassan Niknafs, President of Khazar University, opened the event by welcoming the participants and introducing the international students who were invited to speak about their experience at Khazar University. International students who participated in the event included those from Cameroon, Gambia, India, Iran, Nigeria, and Pakistan. International students shared their experience of studying at Khazar and reasons for choosing Khazar to continue their education. Guests also included a visiting independent researcher from Poland, Ms. Julia Krajcarz.

Turan Jafarova, Director of the International Affairs Office, delivered the presentation and spoke about Khazar University, its schools, programs it offers to local students, resources, laboratories, services, and events. Participants were informed about the ranking of Khazar University among other universities on local, regional, and international levels. Detailed information was also provided about the international partnerships of Khazar University as well as study and exchange opportunities for students.

The presentation ended with a question and answer session. Promotional materials of Khazar University were distributed to the participants of the presentation.

19. AVRASYA EKONOMİ ZİRVESİ
EURASIAN ECONOMIC SUMMIT
İSTANBUL2016

"XƏZƏR"İN ƏMƏKDAŞI 19-CU AVRASİYA İQTİSADİYYAT SAMMİTİNDƏ



Aprelin 5-7-də İstanbulda 19-cu Avrasiya İqtisadiyyat Sammiti keçirildi. Həmin tədbirdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli nümayəndə kimi iştirak edirdi. Tədbirə dünyanın 44 ölkəsindən 450 nümayəndə olmaqla, müxtəlif ölkələrdən prezidentlər, baş nazirlər, nazirlər və millət vəkilləri dəvət olunmuşdular. Tədbirin ilk günü Ə.Əmirbəyli Türkiyə Cümhuriyyəti Baş nazirinin müavini Tuğrul Türkeşlə görüşdü. O, Tuğrul Türkeşə Xəzər Universiteti haqqında geniş məlumat verdi, onunla müxtəlif məsələləri müzakirə etdi.

Sammitin 2-ci günü müxtəlif ölkələrin prezidentlərinin dünyada yaranmış gərgin vəziyyətlə bağlı siyasi mesajları oldu. Azərbaycan Respublikasının Prezidenti adından Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov çıxış etdi. Türkiyə Cümhuriyyəti Baş nazirinin müavinləri Mehmet Şimşek və Tuğrul Türkeş Türkiyə dövləti adından çıxış etdilər.

Sammitdə çıxış edən dövlət rəsmiləri Ermənistanın Azərbaycana olan təcavüzünü qəti şəkildə pislədilər və Azərbaycan torpaqlarının bütövlüyü uğrunda həyatını qurban vermiş şəhidlərin ruhuna fatihə oxudular.

Həmin gün sammitin fəxri qonağı, Türkiyə Cümhuriyyətinin keçmiş prezidenti Abdullah Gül də tədbirdə iştirak etdi və bir sıra siyasi mesajlar verdi – hər zaman Azərbaycanın yanında olduqlarını bildirdi.

Sammitin 3-cü günü əsas mövzu terror məsələsi idi. Bu məsələnin müzakirəsində bütün Qafqazın şeyxi Allahşükür Paşazadə, Ekümenik patriki Patrik Bartholomeos, İordaniyanın Baş naziri Taher Eh-Maşri, Belçikanın Dövlət naziri Emir Kır, Belçikanın millət vəkili Ozlem Özen, Hollandiya senatoru Rene Van Der Linden, Avstriya Müdafiə naziri Werner Fasslorbend, Türkiyə Cümhuriyyəti Avropa Birliyi və sabiq dövlət naziri Eğemen Bağış, Bosniya və Herseqovina Federasiyası sədrinin müavini Melika Mahmutbeqoviç və Bosniya və Herseqovina Federasiya Başqanı Marinko Covana, İstanbul valisi Vasip Şahin və digər rəsmi şəxslər çıxış etdilər. Onlar dünyanın əsas bəlası olan terrorun tezliklə aradan qaldırılmasını tələb etdilər.

Sammitdə Azərbaycan Parlamentinin sədr müavini Valeh Ələsgərov, Energetika naziri Natiq Əliyev, millət vəkili Nizami Cəfərov, Azərbaycanın Türkmənistandakı Fövqəladə və Səlahiyyətli səfiri Həsən Zeynalov iştirak edirdilər.

Sammitin sonunda tədbirin təşkilatçıları adından Mərmərə Qrupu Başqanı Dr. Akkan Suver tədbirdə iştirak edən dövlət başçılarına və nümayəndələrə dərin təşəkkürünü bildirdi.

İDMANÇI TƏLƏBƏMİZ QALİBLƏRDƏN BİRİDİR

Xəzər Universiteti Təhsil fakültəsinin 3-cü kurs tələbəsi Coşqun Məmmədov (*85+kq çəki dərəcəsi; şəkildə sağdan birinci*) əlbəyaxa döyüş növləri üzrə Gürcüstanın Batumi şəhərində aprelin 15-dən 17-dək keçirilmiş Avrasiya kuboku uğrunda b eynəlxalq turnirdə mübarizə aparmışdır.


Yarışlarda Gürcüstan, Azərbaycan, İran, Qazaxıstan və Rusiya idmançıları iştirak etmişlər.

C. Məmmədov 1-ci turda İranlı döyüşçü (Bəhmən) ilə qarşılaşmış və qalib olmuşdur. 2-ci turda erməni əsilli gürcü ilə qarşılaşmalı olduğu halda, həmin idmançı döyüşdən imtina etmişdir.

Coşqun Məmmədov Finalda iranlı döyüşçü (Haşim) ilə qarşılaşmada məğlub olaraq, 2-ci yerə layiq görülmüşdür.



ƏMƏKDAŞIMIZIN REDAKTORU OLDUĞU KİTAB ÇAPDAN ÇIXIB



"Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayevin redaktoru olduğu «На имя Багирова, за подписью Багирова» («Bağırovun adına, Bağırovun imzası ilə") adlı kitab "OL" npkt nəşriyyatında çapdan çıxmışdır. O, kitaba geniş ön söz də yazmışdır.

Kitaba uzun illər Azərbaycanın rəhbəri olmuş Mir Cəfər Bağırovun adına gəlmiş və onun tərəfindən göndərilmiş məktublar və digər sənədlər toplanmışdır. Sənədlər 1920-1953- cü illər dövrünü əhatə edir. Kitabın tərtibçisi görkəmli şair, nasir, pyblisist, tarix tədqiqatçısı, ictimai xadim Teyyub Qurbandır. O, 20 il ərzində Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində topladığı və M. C. Bağırova aid çoxcildlik əsərlərində istifadə etdiyi sənədləri ilk dəfə oxuculara təqdim etmişdir.

Ötən illər ərzində çoxcildliyin "Düşmənlərindən güclü şəxsiyyət" adı ilə irihəcmli üç cildi çapdan çıxmış, dördüncü cildi çapa hazırlanmaqdadır. Qeyd etmək lazımdır ki, həmin kitablar əsl bestsellerə çevrilmiş, dəfələrlə təkrar çap olunmuşdur.





"AZƏRBAYCANDA MULTİKULTURALİZM" MÖVZUSUNA HƏSR OLUNMUŞ GÖRÜŞ


Aprelin 5-də Xəzər Universitetinin və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşkilatçılığı ilə Xəzər Universitetində Azərbaycanda multikulturalizm mövzusuna həsr olunmuş görüş keçirildi. Tədbir Azərbaycan Respublikası Prezidentinin 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması ilə bağlı imzaladığı sərəncama əsasən təsdiq olunmuş tədbirlər planına uyğun olaraq keçirilirdi. Tədbiri giriş sözü ilə Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs açaraq, mövzunun önəmini qeyd etdi və Bilik Fondu ilə Xəzər Universiteti arasında mövcud olan əməkdaşlığın əhəmiyyətindən danışdı.

Bilik Fondunun icraçı direktoru Oktay Səmədov çıxış edərək, rəhbərlik etdiyi fond haqqında məlumat verdi və fondun Azərbaycan multikulturalizminə dair göstərdiyi fəaliyyətini açıqladı. AMEA-nın Dilçilik İnstitutunun direktoru, akademiyanın muxbir üzvü Möhsün Nağısoylu çıxışında mövzu ilə əlaqədar mülahizələrini bildirdi. O, həmçinin, akademik Kamal Abdullayevin elmi redaktorluğu ilə nəşr olunmuş "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" adlı kitabı haqqında məlumat verdi, nəşrin məziyyətlərindən danışdı.

Yekunda Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Muxtar Hacızadə keçirilən tədbirin regionda baş verən hazırkı gərginlik fonunda önəmini irəli çəkərək, Bilik Fondunun rəhbərliyinə əməkdaşlıq üçün təşəkkür etdi.

Aprelin 11-də "Səs" qəzetinin internet səhifəsində tədbir haqqında yazı yayımlanmışdır.

Yazını tam şəkildə bu linkdən oxumaq olar:
http://sesqazeti.az/az/news/social/536940





ƏCNƏBİ MÜRACİƏTÇİLƏRLƏ CANLI SUAL-CAVAB SESSİYASI

Aprelin 7-də Xəzər Universiteti Beynəlxalq əlaqələr şöbəsinin komandası sosial şəbəkələrin birində əcnəbi müraciətçilər üçün canlı sual-cavab sessiyası keçirdi.

Bu sessiyasını keçirməkdə əsas məqsəd əcnəbi müraciətçilərin ən çox rastlaşdığı suallara cavab verərək, onları bütün məlumatlarla təmin etmək idi. Bir saat ərzində Beynəlxalq əlaqələr şöbəsinin işçi heyəti və Xəzər Universitetinin Kamerundan olan tələbəsi Yannick Agbor (Neft mühəndisliyi üzrə magistr tələbəsi) universitetin təklif etdiyi beynəlxalq proqramlar, qəbul və ərizə şərtləri, viza alınması, Azərbaycanda yaşayış xərcləri və s. haqqında sualları cavablandırdılar.

LIVE Q&A SESSION WITH INTERNATIONAL APPLICANTS

On April 7, the International Affairs Office Team held a live Q&A (question and answer) session for international applicants using a social platform.

The main goal in holding the Q&A session was to address the most pressing questions of the international applicants to ensure that they had all necessary information before the deadline. During the hour-long session, the International Affairs Office team and a current international student from Cameroon, Yannick Agbor (MS in Petroleum Engineering candidate), answered questions about international programs offered by Khazar University, admission and application requirements, obtaining visas, living costs in Azerbaijan, and much more.







TƏQDİMAT :
"İNAMLA DANIŞI UĞURLU ÇIXIŞIN ÜÇ SİRRİ"

Aprelin 8-də Xəzər Universiteti İnkişaf Mərkəzinin təşkilatçılığı, kommunikasiya və auditoriya qarşısında çıxışlar üzrə aparıcı ekspert Rəşad Bayramovun iştirakı ilə universitetdə "İnamla danışI Uğurlu çıxışın üç sirri" adlı təqdimat keçirildi. Tədbirdə universitetin tələbələri və əməkdaşları iştirak edirdilər.

Təqdimat qarşılıqlı diskussiya şəklində keçdi, tələbələr tərəfindən böyük maraqla qarşılandı və yüksək qiymətləndirildi.







"XƏZƏR"DƏ TEMPUS LAYİHƏSİ ÜZRƏ YEKUN KONFRANS

Aprelin 9-da Xəzər Universitetinin koordinator olduğu "Avropa Birliyi araşdırmaları üzrə kurrikulumların işlənib hazırlanması və qabiliyyətlərin inkişaf etdirilməsi" adlı TEMPUS layihəsi çərçivəsində yekun konfrans keçirildi. Layihənin koordinatoru Baba Bayramlı konfransı giriş sözü ilə açaraq, bütün tərəfdaş universitetlərə uğurlu birgə fəaliyyət üçün təşəkkür etdi. Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs iştirakçıları səmimi salamlayaraq, Xəzər Universitetinin layihə çərçivəsində əməkdaşlıqdan məmnun qaldığını ifadə etdi və əməkdaşlığın gələcəkdə də davam etdirilməsinin zəruri olduğunu bildirdi. Erazmus+ ofisinin Azərbaycan Milli Ofisisnin rəhbəri Pərviz Bağırov iştirakçıları layihə çərçivəsində fəaliyyətlərin başa çatması münasibətilə təbrik etdi, baş tutmuş əməkdaşlığın gələcəkdə də davam etdirilməsinin vacibliyini vurğuladı və bu işdə Erazmus+ ofisinin yardımçı olmağa hazır olduğunu bildirdi.









Baba Bayramlı "Avropa Birliyi araşdırmaları üzrə kurrikulumların işlənib hazırlanması və qabiliyyətlərin inkişaf etdirilməsi: layihənin nəticələri və gələcək əməkdaşlığın perspektivləri" mövzusunda geniş təqdimatla çıxış etdi. Tərəfdaş universitetlərin nümayəndələri Agostino Massa (İtaliyanın Genuya Universiteti), Bəxtiyar Bədəlov (Azərbaycan Universiteti), Seyid Sura (Naxçıvan Dövlət Universiteti), Ruslan Məmmədov (Gəncə Dövlət Universiteti), İrina Kunina (Bakı Slavyan Universiteti), Fernanada Neutel (Portuqaliyanın Lusofona Humanitar və Texnologiya Universiteti), Leyla Cəfərova (Xəzər Universiteti) və Fərhad Hüseynov (Bakı Dövlət Universiteti) da təqdimatla çıxış edərək, layihə çərçivəsində təmsil etdikləri universitetlərin uyğun fəaliyyətləri haqqında məlumat verdilər.

Sonda layihənin nəticələrinə və gələcək əməkdaşlıq perspektivlərinə həsr olunmuş dəyirmi masa keçirildi.





Tempus

FINAL MEETING FOR TEMPUS PROJECT



On April 9, a final meeting was held for the Curriculum Development and Capacity Building in the Field of EU Studies TEMPUS project coordinated by Khazar University. Baba Bayramli, Project Coordinator, opened the event by thanking all the partner universities for their successful teamwork. Dr. Hasan Niknafs, Khazar University President, said he was pleased with the project and encouraged the consortium to continue its partnership in the future. Parviz Baghirov, Director of the ERASMUS+ national office in Azerbaijan, congratulated participants on completion of the project and said that his office would always be ready to assist with future partnerships.









Baba Bayramli made a detailed report on the project entitled "Curriculum Development and Capacity Building in the Field of EU Studies: Project Results and Opportunities for Further Partnership." Other participants who made speeches and spoke about the project results as representatives of various partner organizations included: Agostino Massa (University of Genoa, Italy), Bakhtiyar Badalov (Azerbaijan University), Seyid Sura (Nakhchivan State University), Ruslan Mammadov (Ganja State University), Irina Kunina (Baku Slavic University), Fernanada Neutel (The Lusophone University of Humanities and Technology, Portugal), Leyla Jafarova (Khazar University), and Farhad Huseynov (Baku State University).

At the end of the event, a roundtable discussion on project results and future partnership was held.







DEPARTAMENT MÜDİRİMİZ VATİKANDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ ETMİŞDİR

Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Muxtar Hacızadə aprelin 11-12-də Vatikanda "Ortaq Evimiz üçün qayğı: ABŞ və Vatikanın qlobal məsələlərdə iştirakı" mövzusunda keçirilmiş beynəlxalq konfransda iştirak etmişdir. Konfransda Vatikanda akkreditə olunmuş səfirlər, diplomatik korpus nümayəndələri, müxtəlif dini qrupların liderləri və beynəlxalq xəbər agentliklərinin təmsilçiləri iştirak etmişlər.

Konfrans 2015-ci il mayın 24-də Papa Fransis tərəfindən dünyadakı Roma Katolik Kilsəsinin bütün yepiskoplarına göndərilmiş "Ortaq Evimiz üçün qayğı" haqqında ensiklika məktubundakı bəzi məsələlərdən irəli gələn çağırışları müzakirə etmək məqsədilə keçirilmişdir. Məlumat üçün qeyd etmək lazımdır ki, həmin ensiklika ətraf mühitə qayğı, iqlim dəyişikliyi, bio-müxtəlifliyin itirilməsi, insanın yaşayış keyfiyyətinin aşağı düşməsi, qlobal bərabərsizlik, içməli su çatışmazlığından və digər yeni səbəblərdən yarana biləcək mümkün problem və münaqişələrə görə Papanın dərin narahatlığını ifadə edir. Planetimizin gələcəyinin necə formalaşdırılması üçün yeni dialoqa çağıran həmin ensiklika məktubunda Papa Fransis hazırda yaşanan problemlərdə insan faktorunun hamını narahat etdiyini nəzərə alaraq, beynəlxalq və lokal səviyyələrdə danışıqlara olan ehtiyacı vurğulayır, yeni konfliktlərin qabaqlanaraq qarşısının alınması və mümkün səbəblərinin əvvəlcədən aradan qaldırılmasının önəmini, dinlərin elmlə səbrli və açıq dialoqunu irəli sürür.

Papanın Ədalət və Sülh Şurasının prezidenti Kardinal Peter Turksonun sədrliyi ilə Vatikandakı Apostol Sarayında keçirilən konfransda "Azərbaycandakı dinlərarası tolerantlıq və multikulturalizm" adlı təqdimatla çıxış edən M. Hacızadə ölkəmizdə təşəkkül tapmış dini tolerantlığın əsasları və mövcud olan multikulturalizmin önəmini regionda və dünyada baş verən gərginliklər fonunda dəyərləndirmişdir. M. Hacızadə öz çıxışında Azərbaycandakı müxtəlif dini qruplar və milli azlıqlar haqqında danışmış, onların ölkəmizin tolerantlıq mühitinə verdikləri danılmaz töhfələr haqqında konfrans iştirakçılarına məlumat vermişdir. Azərbaycanın dünyəvi dövlət olduğunu, onun konstitusiyasının və qanunlarının etno-kultural, irqi və dini mənsubiyyətə görə qətiyyən ayrı-seçkiliyə imkan vermədiyini nümunələr göstərərək izah etmişdir.

Müzakirə zamanı M. Hacızadə aprel ayının ilk günlərində Ermənistan və Azərbaycan silahlı qüvvələrinin təmas xəttində Ermənistanın işğalçı qüvvələri tərəfindən atəşkəsin növbəti dəfə pozulması və təxribatlar törədilməsi, hələlik nəticə verməyən sülh danışıqları, Ermənistandakı tarixi vətənlərindən zorla çıxarılaraq Azərbaycanda məskunlaşmış qaçqın və məcburi köçkünlərin vəziyyəti və güc tətbiqi dilemması barəsində də öz fikirlərini konfrans iştirakçıları ilə bölüşmüşdür.



XƏZƏR UNİVERSİTETİ TƏLƏBƏ YARADICILIQ FESTİVALININ QALİBİDİR

Azərbaycan respublikasının Gəncər və İdman Nazirliyi və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının aprelin 11-12-də S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında keçirdiy ənənəvi "Tələbə baharı" IX Ümumrespublika Tələbə Yaradıcılıq Festivalında Xəzər Universiteti iki nominasiyada iştirak edərək, hər ikisi üzrə qalib olmuşdur.

Universitetin rəqs ansamblı (müəllimlər - Səbinə İsmayılova və Telman Əliyev) rəqs nominasiyası, İqtisadiyyat və menecment fakültəsinin üçüncü kurs tələbəsi Musa Abdullayev vokal nominasiyası üzrə (müəllim - Musiqi və incəsənət departamentinin müdiri, dosent Zülfiyyə Sadığova) birinci yeri tutmuşlar.

Qalibləri təbrik edir, yeni uğurlar arzulayırıq.



"XƏZƏR"İN MUSİQİ KOLLEKTİVLƏRİ RESPUBLİKA FESTİVALINDA İŞTİRAK EDİR

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi mart-aprel aylarında ali məktəb tələbələri arasında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş bədii yaradıcılıq festivalı keçirir. Festivalın münsiflər heyətinə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti Firəngiz Əlizadə rəhbərlik edir.

Aprelin 12-də Xəzər Universitetinin "Dünya" konsert salonunda Xəzər Universiteti, Odlar Yurdu Universiteti və Azərbaycan Dövlət Dəniz Akademiyasının musiqi kollektivlərinə münsiflər heyəti tərəfindən baxış keçirildi. Xəzər Universiteti festivalda beş nomiasiya üzrə (milli rəqs, müasir rəqs, vokal, estrada, xor) iştirak edir.

Qaliblər mayın ilk ongünlüyündə elan olunacaq.







VARŞAVA BİZNES MƏKTƏBİNİN MÜBADİLƏ PROQRAMLARI HAQQINDA TƏQDİMAT

Aprelin 13-də Beynəlxalq əlaqələr şöbəsi Xəzər Universiteti ilə tərəfdaşlıq edən Polşanın Varşava Biznes Məktəbindəki cari mübadilə proqramları haqqında təqdimat keçirdi. Təqdimat İqtisadiyyat və menecment fakültəsinin tələbələri üçün nəzərdə tutulmuşdu və iki hissədən ibarət idi: Polşadakı mübadilə proqramları və Polşa haqqında məlumat.

İlk olaraq, Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova təqdimata başladı və Polşadakı mübadilə proqramları, xüsusən də, seçim şərtləri, tədris proqramları və seçim prosesi haqqında məlumat verdi. Hazırda Xəzər Universitetində müstəqil tədqiqatçı kimi fəaliyyət göstərən polşalı Yuliya Krajcarz isə Polşa barəsində təqdimat keçirdi. O, öz ölkəsi, onun paytaxtı və əsas görməli yerləri, görkəmli polşalılar və s. haqqında danışdı.Təqdimat sual-cavab sessiyası ilə başa çatdı.

Hazırda Xəzər Universitetində Varşava Biznes Məktəbinin magistr tələbəsi – Anna Qozdziyeviç bir semestrlik mübadilədə iştirak edir. O, Beynəlxalq İqtisadi münasibətlər proqramının ikinci kurs tələbəsidir. Bu mübadilə iki universitet arasında imzalanmış ikitərəfli müqavilə əsasında mümkün olmuşdur.

PRESENTATION ABOUT WARSAW BUSINESS SCHOOL EXCHANGE PROGRAM

On April 13, the International Affairs Office organized a presentation about current exchange opportunities in Warsaw School of Economics, a partner university in Poland. The presentation was conducted for students from the School of Economics and Management and consisted of two parts: information about exchange opportunities and information about Poland.

Ms. Turan Jafarova, Director of the International Affairs Office, opened the presentation and provided information about the current exchange opportunities in Poland, particularly including eligibility crite-ria, study programs, and selection processes. Ms. Juliya Krajcarz, an independent researcher from Poland who is currently hosted at Khazar University, presented information about Poland. She spoke about her home country, its capital city and its major attractions, prominent Polish people, etc. The presentation ended with a question and answer session.

Currently, Khazar University hosts one student from the Warsaw School of Economics – Anna Gozdziewicz, a second year master student of International Economic Relations. This one semester-long exchange was possible within the bilateral agreement signed between the two universities.

YENİ YARADILAN QURUM HAQQINDA MÜTƏXƏSSİSLƏRİN FİKRİ ÖYRƏNİLDİ

Aprelin 13-də "Şərq" qəzetinin internet səhifəsində "Test üsulu ləğv edilmədi" adlı məqalə yayımlanmışdır. Məqalədə, digər təhsil ekspertləri ilə yanaşı, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının fikirlərinə də geniş yer verilmişdir.

Məqaləni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

http://www.sherg.az/site/id15527/Test_%C3%BCsulu_l%C9%99%C4%9Fv_edilm%C9%99di.

"DÜNYA"NIN MÜƏLLİMİNİN MÜSAHİBƏSİ

Aprelin 13-də Milli.Az saytı Dövlət Pantomima Teatrının aktyoru və direktoru, əməkdar artist Elman Rəfiyevlə müsahibəni yaımlamışdır. Müsahibədə E. Rəfiyev uzun illər Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbində çalışdığını vurğulayır.

Müsahibəni tam şəkildə bu linklər vasitəsilə oxumaq olar:

http://news.milli.az/culture/420559.html;
http://xebervar.com/xebervar-elman-refiyev-erotik-calarlari-daha-ustuortulu-t86621.html



TƏLƏBƏLƏRİMİZ ZAVODDA TƏCRÜBƏ KEÇDİLƏR

Aprelin 14-də Təhsil fakültəsinin "Ekologiya" kursunu keçən tələbələri Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə Bakı Bərk Məişət Tullantılarının Yandırılması zavodunda oldular və təcrübə keçdilər.

BARAMA İNNOVASİYA VƏ SAHİBKARLIQ LAYİHƏSİNİN TƏQDİMATI



Aprelin 14-də Xəzər Universiteti Karyera mərkəzinin təşkilatçılığı ilə *Azercell*-in Barama İnnovasiya və Sahibkarlıq layihəsinin təqdimatı keçirildi. Layihədə innovativ ofislə, müxtəlif texniki dəstəklə, startupların biznesə çevrilməsi üçün xüsusi individual proqramlar və *Azercell* tərəfindən İKT, hüquq, maliyyə, biznesin inkişafı və marketinq konsultasiyasının təmin edilməsi haqqında geniş məlumat verildi.

Sonda tələbələri maraqlandıran suallar cavablandırıldı.



DEBAT HAQQINDA TƏLİM



Aprelin 13-də Tələbə Məclisinin təşkilatçılığı ilə DVC-Azərbaycanın DİA-dakı təmsilçiləri Xəzər Universiteti tələbələri üçün debat təlimi keçirdilər. Təlimdə debat yaranması, Azərbaycanda debat yarışlarının təşkili və inkişafı haqqında geniş informasiya verildi. Təlimdə fəal iştirak edən tələbələr Xəzər Universitetində yeni yaradılmış "Debat klubu"na üzv seçildilər.

Tələbə Məclisi öz seminarlarını, sosial tədbirlərini mütəmadi olaraq davam etdirir və yaxın gələcəkdə tələbə həyatını zənginləşdirən tədbirlər həyata keçirməyi planlaşdırır.


TÜRK ƏMƏKDAŞLIQ KOORDİNASİYA AGENTLİYİNDƏ GÖRÜŞ



Aprelin 14-də Xəzər Universitetinin rektoru professor Hassan Niknafs, Tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev və İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli TİKA-nın (Türk Əməkdaşlıq Koordinasiya Agentliyi) Bakı ofisində ofisin rəhbəri Mustafa Haşim Polatla görüşdülər. Görüş zamanı universitetlə TİKA arasında gələcək layihələrin müzakirəsi keçirildi. M. Polat yaxın zamanlarda universitetə gələcəyini və TİKA-nın kitablarını hədiyyə edəcəyini bildirdi.

H.Niknafs səmimi görüş üçün TİKA-nın Bakı ofisinin rəhbərinə dərin təşəkkürünü bildirdi.

JAMES C. COBB



TIME

CLEANSING AMERICAN CULTURE OF TIES TO SLAVERY WILL BE HARDER THAN YOU THINK

March 30, 2016

Reflecting on recent calls for stripping the name of Robert E. Lee, a slave owner who went to war in slavery's defense, from Washington & Lee University, historian Emory Thomas has noted that the school's other namesake, George Washington, was also a slaveholder—and that this raises the awkward possibility that one of the country's most distinguished liberal arts institutions might be known one day simply as "&."

Thomas spoke with tongue securely in cheek, but the scenario he posited seemed a logical, if absurd, progression from the current obsession with de-christening institutions named for people with ties to slavery. But recent explorations by several scholars demonstrate that slavery was far more integral to America's development as a nation than we have chosen thus far to acknowledge—which also suggests the enormous difficulty, if not outright futility, of finding historically prominent institutions and individuals entirely free of its insidiously pervasive touch.

African slave labor had first been introduced on the tobacco plantations of the colonial Chesapeake during the 17th century, but slavery's emergence as a truly dominant force in national and international commerce awaited the arrival in 1793 of Eli Whitney's cotton gin, which boosted exponentially both the profitability of growing cotton and the demand for—and value of—slaves. With the explosive spread of cotton-growing across the southern interior and into the new states of Alabama and Mississippi, the booming southwestern frontier proved an irresistible magnet for both people, free and unfree, and financial investment. Slave prices rose meteorically in response to soaring demand, stoked as well by a congressional ban on further importation after 1808. Cotton accounted for nearly one-third of the value of U.S. exported merchandise by 1820, and closer to two-thirds by 1860, more than three-fourths of it going to Great Britain.

Maintaining this fibrous connection between southern slave plantations and the voracious looms of Lancashire required myriad supporting ventures in production, trade, services, and financing on both sides of the Atlantic. With the American banking system still wracked with growing pains in the early 19th century, English firms like Baring Brothers marketed high-yield bonds backed by the slaveholdings of planters in Louisiana and elsewhere, while profits from the slave trade supplied vital capital for the nascent Barclays Bank.

As the American financial system matured, a wide range of domestic banks got in on this act. Two of these, Citizens' Bank and Canal Bank of Louisiana,

which accepted roughly 13,000 slaves as collateral and came to own well over a thousand slaves outright, were destined to become cogs in the great financial wheel of J. P. Morgan Chase. Likewise, Moses Taylor, director of the City Bank of New York, the forerunner of Citibank, managed the monetary fruits of the endless exertions of slaves on large sugar plantations and was also deeply involved in the illicit importation of slaves into Cuba.

Northern shippers also profited handsomely after 1808 in the brisk interstate transfer in slaves that saw some one million bondsmen transferred by sea as well as land from the Upper to the Lower South between 1810 and 1860. Thus it was not in New Orleans but Providence that some of the state's most prosperous and influential citizens gathered at what the local newspaper described as "a very numerous and respectable" meeting, on Nov. 2, 1835, to unanimously endorse several resolutions condemning the actions of recently formed anti-slavery societies in the free states, declaring "coercive measures for the abolition of slavery" a "violation of the sacred rights of property." This proclamation was altogether fitting. Rhode Island had sent more than twice as many ships to Africa for slaves than all of the other colonies or states combined, many of them as part of the infamous Triangular Trade in which New England rum was exchanged for African slaves who then endured the horrific "middle passage" that brought them to the auction blocks of southern or Caribbean ports. Across the region, a sizable workforce was also employed in building the vessels requisite to these activities. Although slavery was said to be the "peculiar institution" of the South, even the loftiest families of old Boston were tapped into the enormous, far reaching stream of wealth it produced.

As for New York, surely there are few cities, North or South, where so many prominent physical fixtures are tied to slavery, even down to key sports venues like Madison Square Garden, Citi Field and the Barclays Center. These disturbing reminders are actually less incongruous than they seem. Even though the international slave trade had been illegal for more than half a century, this ban was so brazenly flouted in the city that the London Times dubbed New York "the greatest slave trading market in the world" in 1860.

Ironically, in an era when so much wealth was derived from pursuits directly related to slavery, the two institutions that tended to receive the most philanthropy were churches and colleges. Perhaps no institution of higher learning has confronted its historical indebtedness to slavery and the slave trade more forthrightly than Brown University, whose principal early benefactors included the Brown brothers, who hauled in hefty profits from trading and transporting slaves. Meanwhile, Tench Francis, who wrote the insurance for some of the Browns' slaving voyages, became one of the founding trustees of the University of Pennsylvania, whose ranks presented a virtual who's who of Philadelphia's high-profile slave traders. And so it goes, from Rutgers, to Princeton, Columbia, Harvard and Yale, all of which and others—as detailed in Craig Steven Wilder's Ebony and Ivory—benefited significantly at some point from the largesse of men who owned or trafficked in human beings.

There is no escaping the critical role of slavery in facilitating our development as a nation. Historian Calvin Schermerhorn has it right when he calls enslaved Africans laboring in southern cotton fields "the strengths and sinews of a robust capitalist system." The institution's tentacles reached far. Even among those who were committed to destroying this malignant fact of national life, evidence of its metastasis is not far to seek, a case in point being abolitionist poet James Russell Lowell, who was born into a family whose textile fortunes were built on cotton grown by slaves and grew up on an elegant Cambridge estate built by a wealthy sugar planter. Anyone who expects that merely scouring the taint of slavery from the faces of a variety of American institutions and edifices moves us toward a definitive resolution of so intricate and complex a historical dilemma would do well to heed the words of a former bondsman recounted in Edward Baptist's recent book on slavery and American capitalism, for they are truly reacting to a story whose "half has never been told."

James C. Cobb is Spalding Distinguished Professor of History, Emeritus, at the University of Georgia and a former president of the Southern Historical Association.

http://time.com/4274901/slavery-traces-history/





REKTOR BİRİNCİ MİLLİ BMT MODELİ KONFRANSINDA FƏRQLƏNMİŞ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜ

Aprelin 8-də Xəzər Universitetinin rektoru Hassan Niknafs Birinci Milli BMT Modeli Konfransında (MilliMUN) fərqlənmiş tələbələrlə görüşdü.

BMT Modeli tələbələrə diplomatiya və əməkdaşlıq vərdişləri aşılayan, BMT Baş Assambleyası, BMT Təhlükəsizlik Şurası və digər BMT qurumlarının simulyasiyasıdır. BMT Modelində tələbələr təşkilatın gündəliyindəki cari məsələlər üzrə müzakirələr aparır, problemləri həll etmək üçün beynəlxalq əməkdaşlığın səfərbərliyi naminə qətnamə layihəsi, strategiya planı hazırlayır, tərəfdaşlar və rəqiblərlə danışıqlar aparır, münaqişələri həll edirlər.

Qeyd etmək lazımdır ki, 2015-ci il sentyabrın 21-də Xəzər Universitetində tələbələrin BMT simulyasiyalarında fəal iştirakı məqsədilə "KhazarMUN Club" tələbə klubu yaradılmışdır. Klubun prezidenti, Humanitar və sosial elmlər fakültəsinin dördüncü kurs tələbəsi Pərvin Rəhimli klub üzvlərinin Birinci Milli BMT Modeli Konfransında fəal iştirakını təmin etmək üçün həmin tarixdən fəaliyyətə başlamışdır.

Gənclər və İdman Nazirliyi və BMT İnkişaf Proqramı "Qlobal siyasi müzakirələrdə gənclərin fəal iştirakını dəstəkləmək üçün əsasların yaradılması" adlı birgə layihə çərçivəsində MUN hərəkatının ölkəmizdə də institutlaşdırılmasını nəzərdə tutur. Bu məqsədlə 2016-cı il fevralın 20-dən 23-dək Bakıda ölkə miqyasında ilk dəfə olaraq, Birinci Milli BMT Modeli Konfransı (MilliMUN) keçirilmişdir. Azərbaycanın 20-dən çox universitet, akademiya və məktəblərini təmsil edən 350 nəfər gənc diplomat qismində iştirak edərək, MilliMUN konfransında BMT-nin 5 komitəsinin işini simulyasiya etmişdir.

Sevindirici haldır ki, Xəzər Universitetinin 21 tələbəsi MilliMUN simulyasiyasında iştirak etmişdir. Tələbələrimizdən Fəsli Nəbiyev BMT Təhlükəsizlik Şurasında "Ən yaxşı nümayəndə heyəti" (*"Best Delegation"*) və Yannick Aghbor Beynəlxalq Telekommunikasiya Birliyində "Ən yaxşı mövqe sənədi" (*"Best Position Paper"*) nominasiyaları üzrə fərqlənmə sertifikatına layiq görülmüşlər.

Rektorla görüş zamanı cari akademik il ərzində bənzər simulyasiyanın Xəzər Universitetinin ev sahibliyi ilə keçirilməsi imkanları da müzakirə olundu. "KhazarMUN" adı altında keçiriləcək konfrans üçün zəruri tədbirlər planının razılaşdırılması qərara alındı.

PRESIDENT MEETS WITH SELECT KHAZAR STUDENTS AT FIRST NATIONAL MODEL UN CONFERENCE

On April 8, Khazar University President Hasan Niknafs met with select Khazar University students who had participated in the First Model UN Conference (MilliMUN). The UN model is a simulation of UN organizations such as the General Assembly, the Security Council and other UN organs intended to teach students diplomacy and cooperation. In the Model UN, students hold discussions about current events on the organization's agenda, prepare resolutions on international cooperation, hold talks with partners and opponents, and resolve conflicts.

Khazar University created Khazar MUN Club on September 21, 2015 in order to ensure strong student participation in future Model UN events. The club president, Parvin Rahimli, began club activities in September to prepare students for the First Model UN Conference.

The Model UN movement is facilitated in Azerbaijan by the Ministry of Youth and Sports and the UN Development Program through the joint project "Creating Support for Active Participation of Youth in Global Political Discussions."



As part of this program, the first MilliMUN Conference was held in Baku on a national scale on 20-23 February, 2016. That event included simulations of 5 UN committees with the participation of 350 young diplomats representing over 20 Azerbaijani universities, academies and schools.

21 students from Khazar University participated in the MilliMUN simulation in February. Among these students, two won certificates: Fasli Nabiyev won "Best Delegation" in the UN Security Council simulation and Yannick Aghbor won "Best Position Paper" in the International Telecommunication Union.

During the meeting with the President on April 8, the idea of hosting a MilliMUN event or another similar event at Khazar University in the current academic year was discussed. A decision was made to being planning the event, which will be called "KhazarMUN."

"XƏZƏR"İN ƏMƏKDAŞI "TƏHSİL TV"-DƏ

Aprelin 9-da Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, fəlsəfə doktoru Muxtar Hacızadə və Təhsil nazirinin müşaviri Fərhad Əmirbəyov "Təhsil TV"nin "Təmal" verilişinin qonağı olmuş, akademik dürüstlüyün önəmini müzakirə etmişlər.

Verilişə bütövlükdə bu link vasitəsilə baxmaq olar:*https://www.youtube.com/watch?v=V_IPegcVNo8*

"SPACE" TV-DƏ GÖRÜŞ

Aprelin 15-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "Space" televiziya kanalında oldu, kanalın rəhbəri Vaqif Mustafayevlə görüşdü. Görüşdə Xəzər Universiteti və "Space" kanalının gələcək əməkdaşlıq ideyaları müzakirə olundu.

"DÜNYA" MƏKTƏBİNİN MƏKTƏBƏQƏDƏR ŞAGİRDLƏRİ ÇİN DİLİNDƏ MAHNI İFA ETDİLƏR

Aprelin 15-də Azərbaycan Dillər Universitetinin (ADU) Çin dili və mədəniyyəti mərkəzinin təşkilatçılığı ilə "Çin və Azərbaycanın kukla teatrı: tarix və müasirlik" adlı bədii tədbir keçirildi.

Tədbirdə Xəzər Universitetinin "Dünya" məktəbinin məktəbəqədər şagirdləri Çin dilində mahnı ifa etdilər.

Daha geniş məlumatı bu linklərdən əldə etmək olar:

http://azpress.az/index.php?lang=az&sectionid=news&id=51727;
http://gun.az/xeber-diller-universitetinde-cin-kukla-teatri-t190282.html.







PACT BAŞA ÇATDI

Aprelin 14-də Xəzər Universitetinin tərəfdaş olduğu "Layihə iştirakçılarının bacarıqlarının artırılması" (PACT) adlı Avropa Komissiyasının Tempus layihəsi çərçivəsində JW Marriott Abşeron otelində layihənin yekun hesabat konfransı keçirildi. Konfransda Xəzər Universitetinin rektoru professor Hassan Niknafs, Azərbaycan Erasmus Plus Ofisinin rəhbəri Pərviz Bağırov, Xəzər Universitetinin İnkişaf üzrə direktoru Razıyə İsayeva, Bakı Dövlət Universitetinin əməkdaşı Təranə Mahmudova layihə, layihənin nəticələri və onun Azərbaycan universitetləri üçün açdığı imkanlar haqqında iştirakçılara geniş məlumat verdilər.











Həmçinin, Xəzər Universitetinin əməkdaşı Rima Məmmədova koordinatoru olduğu "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" layihəsi haqqında konfrans iştirakçılarına məlumat verdi.

Qonaq məruzəçi Çak Şeridan "Layihələrin idarə olunması təcrübəsi" təqdimatında Baki 1-ci Avropa Oyunlarının təşkili və idarə olunması haqqında danışdı.

Konfransda Xəzər Universitinin rəhbərliyi və əməkdaşları, Bakı Dövlət Universitetinin nümayəndələri və Azərbaycanın müxtəlif universitetlərindən qonaqlar iştirak edirdilər.

Xəzər Universitetinin tərəfdaş olduğu bu layihənin koordinatoru Gürcüstan Respublikasının David Tvildiani adına Tibb Universitetidir. Bəzi xəbər saytları öz səhifələrində konfrans haqqında məlumat vermişlər:

http://metbuat.az/news/423813/bakida-temrus-layihesi-cercivesinde-konfrans-kecirilib.html

http://azertag.az/xeber/Bakida_TEMRUS_layihesi_cherchivesinde_konfrans_kechirilib-942923



PACT PROJECT COMPLETED









On April 14, the Final Dissemination Conference of the PACT (Project Actors Capacity Building) TEMPUS project was held at JW Marriott Hotel. Khazar University was a partner university in the project, which was supported by the European Commission. Presenters at the Dissemination Conference included Dr. Hasan Niknafs, President of the University; Parviz Baghirov, Director of the ERASMUS + National Office for Azerbaijan; Raziya Isayeva, Development Director at Khazar; and Tarana Mahmudova of Baku State University. They gave information about the project, its results, and opportunities it created for Azerbaijani universities.





Rima Mammadova, project manager of the "Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) TEMPUS project and coordinator of the Center for Students with Disabilities at Khazar University, also made a presentation about the project.

The conference included a guest speaker, Chuck Sheridan, who shared his experience in project management from the first European Games in Baku.

Participants in the conference included administrators and staff members of Khazar University, Baku State University and other universities of Azerbaijan.

The project coordinator was David Tvildiani Medical University of the Georgian Republic.


Information about the conference was published on several news sites:

http://metbuat.az/news/423813/bakida-temrus-layihesi-cercivesinde-konfrans-kecirilib.html
http://azertag.az/xeber/Bakida_TEMRUS_layihesi_cherchivesinde_konfrans_kechirilib-942923



TIME

HOW YOUR BIRTH ORDER AFFECTS YOUR ODDS OF SUCCESS



April 8, 2016

JEFFREY KLUGER

You've probably never been asked if you're an only child in a job interview—but whether you have siblings, how many you have and where you fall in the hierarchy can play an important role in the work you love, the career you pursue and how successful you'll be.

The stereotypes of the focused, striving first-born; the charismatic wild-child of a last-born; and the lost-in-the-thickets middle-born are all very real things, as psychologists have increasingly been learning and as I discovered when I was writing my 2011 book, The Sibling Effect.

First-borns come into the world as their parents' sole princess or prince. They are more inclined to be pampered, more inclined to be indulged, more inclined to grow up with a sense that they sit at the center of the familial orbit. That's a pretty sweet deal, and they do what they can to play by the rules and keep the system running.

Last-borns are not so satisfied with the existing order. They are the smallest and weakest people in the playroom—the ones that, if they were puppies or piglets, would get the worst nursing spots on the milk bar that is mom. And if they were baby birds, they would be nudged from the nest.

That makes them more inclined to be rebellious (the better to overturn the system). It also makes them funnier, more intuitive and more charismatic than their older siblings. If you can't use strength and size to prevent yourself from getting pushed around, you learn to disarm with charm and to pay attention to other people's thoughts and motivations in order to stay one step ahead of them—what psychologists call a low-power strategy.

And as for middle siblings? Well, they're more of a puzzle. They may adopt the behaviors of the biggest siblings or the littlest ones—or they may find some behavioral blend of the two. Nothing wrong with that, but having grown up in a home in which they may have felt forever outshone by the bright lights of the oldest and youngest, they are also likelier to suffer from self-esteem issues or even depression.

In the workplace, all of this can play out a lot of ways. First-borns are statistically likelier to be CEOs, Senators and astronauts—and to make more money than their younger siblings, too. That doesn't mean that the younger siblings are shut out of those careers, but it does mean that if they achieve the same high station, they will perform very differently.

Studies of CEOs have shown that those who are first-borns tend to run their companies conservatively—improving things by, say, streamlining product lines, simplifying distribution routes and generally making sure the trains run on time. Last-borns are more likely to blow up the tracks and buy new trains—reinventing a company entirely, rather than simply reforming or improving it.

http://motto.time.com/4286120/siblings-day-success-career/



Sərgi: "I ŞAH İSMAYIL – SƏRKƏRDƏ VƏ HÖKMDAR"

Aprelin 15-də Milli Azərbaycan Tarixi Muzeyndə "I Şah İsmayıl – sərkərdə və hökmdar" sərgisinin açılış mərasimi oldu. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tədbirdə iştirak edirdi.

Mərasimi giriş sözü ilə Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı və AMEA-nın prezidenti akademik Akif Əlizadə açıq elan etdilər.

Tədbirin bədii hissəsində müxtəlif musiqi kollekrivləri və ifaçılarla yanaşı, Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqovanın müşayiəti ilə universitetin magistr tələbəsi Elçin Feyzullayev "Şah İsmayıl" operasından "Aslan şahın arıyası"nı ifa etdi.

Bədii hissə sona çatdıqdan sonra tədbir iştirakçıları sərgi ilə tanış oldular. Sərgidə I Şah İsmayılın həyat və fəaliyyətinə aid 130-dan artıq eksponat – silahlar, pullar, kaşılar, parçalar və s. nümayiş etdirildi.

H.İsaxanlı tədbiri işıqlandıran televiziya kanallarının birinə Şah İsmayıl Xətai, Səfəvilər dövlətinin tarixdə rolu, bu sərginin əhəmiyyəti haqqında müsahibə verdi.

Sərgi dekabrın 15-dək davam edəcək.







KONFRANS:
"ELEKTRON KİTABXANALARIN FORMALAŞMASI PROBLEMLƏRİ"

Aprelin 15-də AMEA İnformasiya Texnologiyaları İnstitutunda "Elektron kitabxanaların formalaşması problemləri" adlı respublika elmi-praktik konfransı keçirildi. Konfransda Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin əməkdaşı Səidə Orucova da iştrak edirdi.

İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev AMEA Rəyasət Heyətinin qərarı ilə keçirilən konfransın elektron kitabxanaların multidissiplinar problemlərinə həsr olunduğunu qeyd etdi. Ölkədə milli elektron kitabxana mühitinin yaradılmasının prioritet məsələlərdən olduğunu söyləyən alim bildirdi ki, bunun üçün e-kitabxanaların kommunallaşdırılması və inteqrasiyası əsas fəaliyyət istiqamətlərindəndir.




Mövzu ətrafında geniş fikir mübadiləsi aparıldı, təklif və tövsiyələr səsləndirildi. Məruzəçilər konfrans iştirakçılarının suallarını cavablandırdılar.

"ISSUES OF SETTING UP ELECTRONIC LIBRARIES" CONFERENCE

On April 15, a national conference entitled "Issues of Setting up Electronic Libraries" was held by the Azerbaijan National Academy of Sciences. The conference was opened by Academic Rasim Aliquliyev, Director of the ANAS Information Technologies Institute. The objective of the conference was to discuss multidisciplinary issues related to electronic libraries, which have become a priority issue in the country. The conference also included lectures and question-and-answer sessions.

Saida Orujova, staff member of Khazar University Library Information Center, attended the conference.







"XORTDANIN CƏHƏNNƏM MƏKTUBLARI" TAMAŞASINDA

Aprelin 16-da Xəzər Universitetində Azərbaycan dilini öyrənmək üçün Polşadan gəlmiş tədqiqatçı Julia Krajcarz Azərbaycan dili və ədəbiyyatı departamentinin assistenti Günel İsmayılova ilə birlikdə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Əbrürrəhim bəy Haqverdiyevin eyni adlı povesti əsasında hazırlanmış "Xortdanın Cəhənnəm məktubları" adlı tamaşaya baxdılar.

Tamaşadan sonra qonaq öz təəssüratını bölüşdü.

INTERNATIONAL GUEST VISITS THEATER

On April 16, Julia Krajcarz, an independent researcher who is visiting Khazar University to learn the Azerbaijani language, attended a performance of "Khortdan's Letters of Hell," a comedy by Abrurrehim bey Hagverdiyev, at the Azerbaijani State Young Spectators' Theater. The visit was facilitated by Gunel Ismayilova, Assistant for the Department of Azerbaijani Language and Literature. After the performance, Ms Krajcarz shared her views on the event.









GÖRÜŞÜN ƏSAS MƏQSƏDİ UNİVERSİTET VƏ MƏKTƏB ARASINDA DAİMİ ƏLAQƏLƏRİN YARADILMASI İDİ

UNİVERSİTET MÜƏLLİMLƏRİ ŞAGİRDLƏRLƏ GÖRÜŞDÜLƏR

Aprelin 16-da Xəzər Universitetindən bir qrup müəllim və tələbə Hövsan kəndindəki 118 nömrəli məktəbə səfər etdilər. Görüşün əsas məqsədi universitet və məktəb arasında daimi əlaqələrin yaradılması idi. Öncə Xəzər Universitetinin müəllimləri və tələbələri məktəb şagirdlərinin təşkil etdiyi əl işləri sərgisi ilə tanış oldular.







Sonra müəllimlər – Rövşən Abbasov, Qəşəm Zeynalov, Yeganə Balamedova, Nərmin Fətəliyeva, tələbə Əhməd Usama şagirdlər qarşısında çıxış etdilər və Xəzər Universitetində tələbə olmağın üstünlüklərindən danışdılar.

Məktəbin müəllimi, təcrübəli pedaqoq Rəhilə Hacıyeva qonaqlara təşəkkürünü bildirdi və Xəzər Universitetini Azərbaycanın ən yaxşı universiteti adlandırdı.







XƏZƏR UNİVERSİTETİ KUNİB-İN TƏHSİL SƏRGİSİNDƏ

Aprelin 16-17-də ParkİNN otelində KUNİB-in (Qafqaz Universtetlər Birliyi) III Təhsil Sərgisi keçirildi. Sərgidə Türkiyənin 20-dən artıq universiteti, müxtəlif təhsil şirkətləri iştirak edirdilər. Sərgini KUNİB-in başqanı, Ardahan Universitetinin rektoru professor Ramazan Korkmaz açdı. O, sərgiyə gələn bütün universitet rəhbərlərini, qonaqları, tələbələri salamladı və sərgi haqqında məlumat verdi. KUNİB-in fəaliyyəti haqqında film nümayiş etdirildi.


Təhsil sərgisində Xəzər Universiteti də öz guşəsi ilə iştirak edirdi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli sərgidə oldular, türkiyəli universitet nümayəndələri ilə görüşdülər.

HAMLET İSAXANLININ SÖZLƏRİNƏ YAZILMIŞ MAHNILAR BƏSTƏKARIN YUBİLEYİNDƏ SƏSLƏNDİRİLDİ

Aprelin 18-də R. Behbudov adına Dövlət Mahnı Teatrında görkəmli bəstəkar, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Tahir Əkbərin 70 illiyinə həsr olunmuş yaradıcılıq tədbiri keçirildi. Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da iştirak edirdi. H.İsaxanlı çıxış edərək şair, bəstəkar və müğənni arasında əməkdaşlıq ideyaları və Tahir Əkbərin yaradıcılığı haqqında danışdı.

Konsert proqramında sözləri Hamlet İsaxanlı və musiqisi Tahir Əkbərə məxsus olan iki mahnı səsləndirildi. Azər Zeynalov "Mənə ayrılan vaxt" və ya " Rübailər" adı ilə məşhur olan mahnını, Gülyanaq Məmmədova isə " Məndən sənə yar olmaz " adlı mahnını ifa etdilər.

TÜRKİYƏ UNİVERSİTETLƏRİNİN REKTORLARI "XƏZƏR"DƏ



Aprelin 17-də KUNİB-in Bakıda keçirilən sərgisində iştirak edən Türkiyə universitetlərinin rektorları Xəzər Universitetində oldular. "Mərmər" salonda universitet rəhbərliyinin, dekanların, departament müdirlərinin rektorlarla görüşü keçirildi.

Əvvəlcə Mədəniyyət və incəsənət departamentinin müdiri pianoçu Zülfiyə Sadıqovanın rəhbərlik etdiyi musiqi qrupu qonaqların şərəfinə kiçik konsert verdi. Məhsəti Cabbarovanın, Elçin Feyzullayevin solo ifaları və Nəsrin Rzayevanın skripkada ifası qonaqlar tərəfindən alqışlarla qarşılandı.

Konsertdən sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı görüşü açaraq, Türkiyədən gələn universitet rektorlarını və qonaqları səmimi salamladı. H.İsaxanlı universitetin yaradılması və bu günə kimi olan fəaliyyəti haqqında qonaqlara geniş məlumat verdi. Sonra KUNİB-in başqanı, Ardahan Universitetinin rektoru professor Ramazan Korkmaz qonaqlar adından Hamlet İsaxanlıya və Xəzər Universitetinin rəhbərliyinə səmimi qəbul üçün dərin təşəkkürünü bildirdi. Mardin Artuklu Universitetinin rektoru professor Ahmet Ağırakça, SANKO Universitetinin rektoru professor Ahmet Sınav, Bursa Orhangazi Universitetinin rektoru professor Recep İleri və digər universitetlərin rektorları çıxış edərək, Xəzər Universitetində keçirilən səmimi, xoş görüş üçün professor Hamlet İsaxanlıya və universitet rəhbərliyinə dərin təşəkkürlərini bildirdilər.

Qonaqların şərəfinə Şirvanşah Muzey Restoranında ziyafət verildi. Xatirə şəkilləri çəkildi.







"ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN 66-cı MƏŞĞƏLƏSİ





Aprelin 18-də Xəzər Universitetinin ənənəvi "Elm və Sənət Məclisi"nin 66-cı məşğələsi keçirildi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı qonaqları salamlayaraq, Macarıstanın Szegedi Universitetinin professoru İstvan Zimonyini tədbir iştirakçılarına təqdim etdi, onun həyatı və yaradıcılığı haqqında məlumat verdi.

İstvan Zimonyi "Avropada köçəri xalqlar: erkən orta əsr Avropa tarixinin təşəkkülündə macarların və türklərin rolu" adlı məruzə ilə ingilis dilində çıxış etdi və universitetin Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzinin müdiri Fərda Əsədov onun fikirlərini tərcümə ilə iştirakçılara çatdırdı. Məruzə ətrafında müzakirələr oldu. Müzakirələrdə H. İsaxanlı, Güllü Yoloğlu, İsmixan Osmanlı, Fərhad Quliyev (AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu), Faiq Ələkbərov (AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu), Şahin Mustafayev, Sevda Süleymanova (AMEA-nın Şərqşünaslıq İnstitutu), Səbinə Nemanzadə (AMEA-nın Əlyazmalar İnstitutu), Asif Bayramov (Azərbaycan Universiteti), Şahin Fazil (AMEA-nın Tarix İnstitutu) və digər alimlər iştirak etdilər.

Məclisin sonunda macar alim kitablarını Xəzər Universitetinin kitabxanası üçün H. İsaxanlıya təqdim etdi. H.İsaxanlı qonağa öz adından və Azərbaycanın tanınmış alimləri adından dərin təşəkkürünü bildirdi.





OF SCIENCE AND ART HOLDS 66TH MEETING



On April 18, the 66th meeting of the Assembly of Science and Art was held on the downtown campus of Khazar University. Prof. Hamlet Isaxanli, Founder of the University and Chairman of its Board of Directors and Trustees, opened the meeting and int oduced the guest lecturer, Professor Istvan Zimonyi (Szeged University, Hungary).

Then Professor Zimonyi spoke about "Nomads in Europe: Magyars and Turks in shaping the early medieval European history" in English, and Dr. Farda Asadov translated his speech for the audience. The lecture was followed by a discussion in which the following scholars participated: Hamlet Isaxanli (Khazar University), Gullu Yologlu (Ethnography Institute of ANAS), Faiq Alakbarov (Institute of Philosophy and Law, ANAS), Ismikhan Osmanli (Ethnography Institute of ANAS), Shahin Mustafayev (Orientalism Institute of ANAS), Sabina Nemanzada (Manuscripts Institute of ANAS), Asif Bayramov (Orientalism Institute of ANAS), Shahin Fazil (History Institute of ANAS), Sevda Suleymanova (Orientalism Institute of ANAS), and Farhad Guliyev (Archeology Institute of ANAS).

At the end of the event, the guest speaker presented many of his books to the Khazar University library. Prof. Isaxanli thanked him on behalf of himself as well as the well-known scholars of Azerbaijan.



XƏZƏR UNİVERSİTETİ "ZƏKALAR"IN QONAĞI OLDU

Aprelin 20-də "Zəkalar" liseyində 11-ci sinif şagirdləri ilə Xəzər Universiteti rəhbərliyinin görüşü keçirildi. Görüşdən əvvəl məktəbin direktoru Aygün Əhmədli cay süfrəsi ətrafında universitet nümayəndələrinə "Zəkalar" liseyi haqqında geniş məlumat verdi və Xəzər Universiteti ilə uzun müddət davam edən əməkdaşlıqdan məmnun olduğunu bildirdi.

Görüş liseyin akt zalında keçirildi. A. Əhmədli şagirdlərə Xəzər Universiteti haqqında məlumat verdi. Şagirdlərlə görüşdə Xəzər Universitetinin rektoru professor Hassan Niknafs, Akademik işlər üzrə prorektor professor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, Təhsil fakültəsinin dekanı Elza Səmədova və İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyli, universitetin tələbələri İsmət Allazov, Tallyə Hüseynzadə, Usama Ahmet Khand (Pakistan), Tendai Samantha Shereni (Zimbabve) və digərləri iştirak etdilər.

Universitetin rəhbərliyi və tələbələri şagirdləri maraqlandıran bütün suallara cavab verdilər. Sonda A. Əhmədli maraqlı görüş üçün məktəbin kollektivi adından universitet rəhbərliyinə təşəkkür etdi.

"BAKI ŞEKSPİRDƏN DANIŞIR"

Aprelin 20-də "Exo" (rus dilində) qəzetinin rəsmi internet səhifəsində Xəzər Universitetində Şekspirin vəfatının 400 illiyi münasibətilə keçiriləcək tədbir haqqında məlumat yayınlanmışdır.

Məlumatı tam şəkildə bu link vasitəsilə oxumaq olar: *http://www.echo.az/article.php?aid=99441.*



XƏZƏR UNİVERSİTETİ İORDANİYADA TƏHSİL SƏRGİSİNDƏ İŞTİRAK ETDİ

Aprelin 21- 22-də Xəzər Universiteti Təhsil Məsləhəti üzrə Beynəlxalq Qrup (*International Group for Education Consultancy–IGEC*) şirkətinin Ammanda keçirdiyi beynəlxalq təhsil sərgisində iştirak etdi.

Sərgidə Avstraliya, Azərbaycan və ABŞ universitetləri təmsil olunurdu. Xəzər Universitetini Beynəlxalq Əlaqələr Şöbəsinin direktoru Turan Cəfərova təmsil etdi.





Aprelin 21-də "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsi çərçivəsində Xəzər Universitetində çalışan və tələbələrlə birbaşa ünsiyyətdə olan inzibatı işçilər üçün təlim-seminar həyata keçirildi. Təlimçi Rima Məmmədova (layihə rəhbəri) iştirakçılara əlillik, onunla əlaqədar olan qanunvericilik, əlilliyi olan şəxslərlə ünsiyyət və inkluziv təhsil haqqında geniş məlumat verdi.

R.Məmmədova, həmçinin, ESFİDİP layihəsi və layihə çərçivəsində yaradılmış "Əlilliyi olan Tələbələr üçün Mərkəz" haqqında da məlumat verdi.

Tədbir zamanı mövzu ətrafında fikir mübadiləsi aparıldı və iştirakçıların suallarına cavab verildi.





"DÜNYA" MƏKTƏBİNDƏ GÖRÜŞ

Aprelin 21-də "Dünya" məktəbində 11-ci sinif şagirdləri ilə Xəzər Universiteti rəhbərliyinin görüşü keçirildi. Məktəbin direktoru Mərufə Mədətli qonaqları səmimi qarşılayaraq, şagirdlərə təqdim etdi və şagirdlərin Xəzər Universitetini yaxşı tanıdığını bildirdi. Sonra sözü universitetin rektoru Hassan Niknafsa verdi.

Şagirdlərlə görüşdə Akademik işlər üzrə prorektor professor Məhəmməd Nuriyev, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Təhsil fakültəsinin dekanı Elza Səmədova, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri Muxtar Hacızadə, universitetin tələbəsi Aslan İsaxanlı və digərləri iştirak etdilər.

Universitetin rəhbərliyi və tələbələr şagirdləri maraqlandıran bütün suallara cavab verdilər. Sonda məktəbin təsisçisi Nailəxanım İsayeva və məktəbin direktoru Mərufə Mədətli maraqlı görüş üçün məktəbin kollektivi adından universitet rəhbərliyinə təşəkkür etdilər.





"XƏZƏR"İN TƏLƏBƏSİ MÜSABİQƏNİN QALİBİ OLDU

Aprelin 22-də Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, "Kapital Bank" ASC, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), İnnovativ Biznes-İnkubatorun birgə təşkilatçılığı ilə tələbələr arasında keçirilən "Made in Azerbaijan" biznes ideya müsabiqəsinin qalibi müəyyən edildi.

Müsabiqənin qalibi Xəzər Universitetinin Humanitar və sosial elmlər fakültəsinin III kurs tələbəsi Alpaslan İsmayılovla UNEC-in III kurs tələbəsi Kərim Rzabəylinin birgə hazırladıqları "EcoRise" kompüter oyunu layihəsi oldu.

Bu barədə daha geniş məlumatı bu linklərdən əldə etmək olar:

http://inform.az/index.php?newsid=21343;
http://www.cbc.az/az/video/all-videos/biznes-layihe-musabiqesi-yekunlashib/.

TƏHSİL ÜÇÜN HANSI ENDİRİMLƏR OLA BİLƏR ?

Aprelin 22-də "Exo" (rus dilində) qəzetinin rəsmi internet səhifəsində "Təhsil üçün endirimlər" adlı araşdırma yazısı yayımlanmışdır. Yazıda təhsil üzrə ekspertlərdən biri kimi, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının fikirlərinə və təkliflərinə yer verilmişdir. Eyni zamanda, yazıda digər ekspertlər Xəzər Universitetinin təcrübəsini qiymətləndirmişlər.

Yazını tam şəkildə bu link vasitəsilə oxumaq olar: *http://www.echo.az/article.php?aid=99507*



"XƏZƏR"İN ƏMƏKDAŞLARININ MƏQALƏLƏRİ İSVEÇRƏNİN NÜFUZLU JURNALINDA ÇAP OLUNUB

İsveçrədə nəşr olunan nüfuzlu "Caucasus Analytical Digest" jurnalı növbəti 83-cü buraxılışını bütövlükdə Azərbaycana həsr etmişdir. Həmin buraxılışda Xəzər Universitetinin Avrasiya Bilik Mərkəzinin ekspertləri – İnqilab Əhmədovun, Ceyhun Məmmədovun, Fərid Quliyevin və Kənan Aslanlının məqalələri yer almışdır.

Məqalələri bu link vasitəsilə oxumaq olar:
http://www.laenderanalysen.de/cad/pdf/CaucasusAnalyticalDigest83.pdf

ƏMƏKDAŞIMIZ MÜƏLLİF HÜQUQLARI AGENTLİYİNİN KONFRANSINDA

Aprelin 22-də Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi 23 aprel - "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü" və 26 aprel - "Beynəlxalq Əqli Mülkiyyət Günü" münasibətilə "Bulvar otel"də "Azərbaycanın multikultural siyasəti, əqli mülkiyyət və erməni saxtakarlığı" mövzusunda konfrans keçirmişdir. Konfransda Xəzər Universitetini "Xəzər Xəbər"jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev təmsil etmişdir.

Gün ərzində davam edən konfransda Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanovun "Ermənilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir", agentliyin eksperti Elşad Əlilinin "Ararat mifologiyası və onun erməni tarixçiliyində rolu barədə" mövzularında məruzələri dinlənilmiş, geniş müzakirələr aparılmışdır.





XƏZƏR UNİVERSİTETİNDƏ "ŞEKSPİR DÜNYADA" ADLI KONFRANS KEÇİRİLDİ



Aprelin 22-də Xəzər Universiteti və British Council-in birgə təşkilatçılığı ilə universitetin "Mərmər" zalında dahi şair və dramaturq Uilyam Şekspirin vəfatının 400 illiyi ilə əlaqədar "Shakespeare Lives" tədbirlər proqramı çərçivəsində "Şekspir dünyada" adlı konfrans keçirildi.

Konfransı giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, qonaqları salamladı və belə bir konfransa ev sahibliyi etməkdən məmnun olduqlarını bildirdi.

Sonra söz Böyük Britaniyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri İrfan Siddiqə verildi. Səfir İ. Siddiq belə bir tədbirin təşkilinə görə Xəzər Universitetinə təşəkkürünü bildirdi.







British Council-ın Azərbaycan üzrə direktoru Elizabet Vayt da tədbirlə bağlı fikirlərini bölüşdü.

Tədqiqatçılar – Leyçester Universitetindən (Birləşmiş Krallıq) professor Sarah Knight, İlia Dövlət Universitetindən (Gürcüstan) Natalia Tvalçrelidze, Azərbaycanın müxtəlif təhsil ocaqlarından Alla Bayramova, Sabir Mustafa, Qılıncxan Bayramov, kinoşünas Ayaz Salayev U. Şekspir yaradıcılığı ilə bağlı apardıqları tədqiqatlardan bəhs etdilər.

Nəzərə çatdırıldı ki, bütün dünyada yubileyi qeyd olunan Uilyam Şekspir həm komediya, həm də faciə janrlarında eyni dərəcədə uğur qazanan nadir dramaturqlardandır. Onun "Hamlet", "Otello", "Romeo və Cülyetta", "Maqbet", "Kral Lir" kimi əsərləri dünya ədəbiyyatının nadir inciləri sırasındadır.







Şekspirin əsərləri dünyanın bir çox dillərinə tərcümə olunub, dramları dünyanın əksər teatrlarında tamaşaya qoyulub.

Vurğulandı ki, Azərbaycan teatrının inkişafında Şekspirin əsərlərinin səhnələşdirilməsi müstəsna rol oynayıb. Görkəmli Azərbaycan yazıçı və dramaturqları onun faciə və komediyalarını dəfələrlə Azərbaycan dilinə tərcümə ediblər.

Akademik yönümlü təqdimatlara əlavə olaraq, konfransda Xəzər Universiteti tələbələrinin, "Dünya" məktəbi şagirdlərinin təqdimatları oldu, film və qısa dram səhnələri nümayiş etdirildi.

Konfransın hazırlanması və keçirilməsində fərqlənmiş müəllim və tələbələrə British Council-in sertifikatları təqdim olundu.












"SHAKESPEARE IN THE WORLD" CONFERENCE

On April 22, a conference entitled "Shakespeare in the World" jointly organized by Khazar University and British Council was held at the university in honor of the 400th anniversary of William Shakespeare's death.

Prof. Hamlet Isaxanli, Founder of the University and Chairman of the Board of Directors and Trustees, opened the event and welcomed the guests, saying that Khazar University was pleased to host the event.

Then the floor was given to H.E. Irfan Siddiq, Extraordinary and Plenipotentiary Ambassador of Great Britain to Azerbaijan. He thanked Khazar University for hosting the event.









Ms Elizabeth White, Director of British Council in Azerbaijan, also shared her thoughts about the event.

Then researchers gave lectures about Shakespeare, including Professor Sarah Knight of Leicester University (UK), Natalia Tvalchrelidze of Ilia State University (Georgia); Alla Bayramova, Sabir Mustafa, and Gilinjkhan Bayramov from Azerbaijani universities; and cinematography scholar Ayaz Salayev.

It was noted that William Shakespeare's anniversary is being celebrated all over the world. He earned rare success in the genres of both comedy and tragedy. His works such as Hamlet, Othello, Romeo and Juliet, Macbeth, and King Lear are classics of world literature. Shakespeare's works have been translated into many languages and dramatized in theaters around the world.

Speakers also emphasized that Shakespeare played an exceptional role in the development of Azerbaijani theater. Well-known Azerbaijani writers and playwrights have translated many of his tragedies and comedies into the Azerbaijani language.

In addition to the academic lectures, the conference also included brief film and drama performances prepared by Khazar University students and Dunya School pupils.

British Council certificates were awarded to students and instructors who actively participated in the preparation and implementation of the conference.







SAYTLAR XƏZƏR UNİVERSİTETİNDƏKİ TƏDBİRDƏN YAZDILAR

Aprelin 22-də Xəzər Universitetinin və British Council-ın birgə təşkilatçılığı ilə universitetin "Neftçilər" kampusunda Uilyam Şekspirin vəfatının 400 illiyi ilə əlaqədar "Şekspir dünyada" mövzusunda keçirilən konfrans bir çox kütləvi informasiya vasitələrində işıqlandırılmışdır.

Bu internet səhifələrinin linklərinə daxil olaraq, tədbir haqqında daha geniş məlumat oxumaq olar:

http://azertag.az/xeber/Bakida__quotSekspir_dunyada_movzusunda_konfrans_kechirilib-945103;
http://525.az/site/?name=xeber&news_id=55676

KHAZAR UNIVERSITY EVENT ON WEBSITES

On April 22, a conference entitled "Shakespeare in the World" jointly organized by Khazar University and British Council was held at the university in honor of the 400th anniversary of Shakespeare's death. Articles about this conference were published on several news sites, including the following links:

http://azertag.az/xeber/Bakida__quotSekspir_dunyada_movzusunda_konfrans_kechirilib-945103; http://525.az/site/?name=xeber&news_id=55676.







Aprelin 23-24-də Xəzər Universitetinin "Neftçilər" korpusunda universitetin Psixologiya departamentinin və Karyera Mərkəzinin təşkilatçılığı ilə ənənəvi Azərbaycan III Beynəlxalq Psixologiya Konfransı keçirildi. Konfransda Türkiyədən gəlmiş, Azərbaycanın müxtəlif bölgələrindən olan mütəxəssislərlə yanaşı, sahəyə maraq göstərən şəxslər də iştirak edirdilər. Konfransa olan bu maraq nəzəriyyə ilə praktikanın bir arada olması ilə sıx bağlıdır.

Aprelin 23-də konfransın rəsmi açılışı oldu və məruzələr dinlənildi. Aprelin 24-də isə iştirakçılar əvvəlcədən müəyyən olunmuş vorkşoplarda iştirak etdilər.

Humanitar və sosial elmlər fakültəsinin dekan müavini, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova konfransı açıq elan edərək, sözü Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya verdi. Sonra kürsüyə psixiatr İkram Rüstəmov dəvət olundu. Konfrans zamanı yerli və Türkiyədən dəvət olunmuş psixoloqlar və psixiatrlar çıxış edərək, psixologiyanın müxtəlif sahələrini əhatə edən mövzular haqqında məlumat verdilər. Konfransda Hacettepe Universitetindən professor Tuncay Ergene, Adnan Menderes Universitetindən professor Mehmet Eskin, Geştalt Dərnəyinin qurucusu professor Ceylan Daş, Yüzüncü il Universitetindən dosent Selim Günüç, Hasan Kalyoncu Universitetindən dosent Ramin Əliyev iştirak edirdilər.









Konfransda imtahan həyəcanı, internet asılılığı, psixoloji konsultasiyanın mərhələləri, homoseksuallıq, yenilməzlik kimi aktual mövzular haqqında müzakirələr aparıldı. Konfransda iştirak edənlər psixologiya sahəsində yeni biliklər əldə etməklə yanaşı, bu sahənin mütəxəssislərinin bilik və təcrübələrindən yararlanmaq, fərqli baxış tərzlərini görmək, müqayisə etmək, müxtəlif universitetlərdə oxuyan tələbələr və çalışan müəllimlərlə əlaqələr qurmaq imkanı əldə etdilər.

Konfransın sonunda hər bir iştirakçıya sertifikat verildi.



FYODOR TÜTÇEV

RUSİYA

Sevirəm fırtınanı mayın əvvəllərində,
Nə zaman ki, baharın birinci şimşəkləri
Şıltaqlaşır, oynayır, dura bilmir yerində,
Göyü lərzəyə salır zamansız küləkləri.

Guruldayır gəncəcik buludların səfləri,
Yağış da çisəkləyir, aləmi duman alır...
Damlalar da - yağmurun kiçicik sədəfləri,
Günəşin telləritək qızılı rəngə çalır...

Daşlanır zirvələrdən çevik bahar selləri,
Əskilmir meşələrdən quşların zümzüməsi.
Meşənin uğultusu, görünməz dağ yelləri,
Bir də səs-səsə verən şimşəklərin nəğməsi...

...Güman kı deyəcəksən, ağ qartalı yemləyən
Zevsin yelbeyin qızı ilahə Gebeyadır;
Əlində şimşək dolu odlu qədəh var deyə,
Narın qığılcımları gülərək yerə atır...

.Oturaraq döşəmədə,
Göz gəzdirib məktublara,
Soyuq kömür parçasıtək
Tullayırdı bir kənara.

Ona tanış vərəqlərə
Toxunurdu nəzərləri;
Sanki ruhdu, laqeydcə
Seyr edirdi göydən yeri...

Eh, həyatın geridönməz
Günləriydi bu məktublar!
Hər sətirdə sevinc, kədər,
Və... sevginin göz yaşı var!..

Diz çökərək, ürəyimi
Boşaltmağa hazırdım mən.
Amma əfsus... kimə nə var
Bir kölgənin nisgilindən?!

Mənim iztirablı sükunətimin
Acılı günləri hesaba gəlməz...
Bu sonu görünməz məşəqqətimin
Yükünü şeirim də daşıya bilməz.

...Qəfildən donuram bəzən yerimdə,
Nə bir göz yaşı var, nə də yalvarış.
Ötənlər basaraq çiyinlərimdən
Çəkirlər torpağa, gündə bir qarış...

Bu ölü keçmişin başının üstə
Sevgisiz, günəşsiz bir dünya vardır;
Ətrafım, beləcə həvəssiz, xəstə,
Hamını, hər şeyi unudanlardır.

Yalnızam çəkilməz, bitməz qəmimlə
Məni məndən alan bir günah ilə.
Dalğalar üstündə sınıq gəmimlə
Üzürəm naməlum, adsız sahilə...

İlahi, əzab ver, batım dərinə,
Qəflət yuxusundan ruhumu qurtar!
Əlimdən aldığın sevgi yerinə
Sevgi acısını ömrümə qaytar!

Qoy yanıb kül olum onun uğruna -
Bəxtiylə sonadək vuruşan qızın!
Eşqi xilas kimi basıb bağrına
Haqqın dərgahına qovuşan qızın!

Onun – nə qədərə dov gələ bilən,
Nə də məğlub olan son ana kimi!
Onun – əzab çəkən, sevən, sevilən
Həyatın dadını duyana kimi!



Gündoğan avazıyırdı...
Gurultu salırdı külək...
Silkələnirdi dəniz də
Yerə enmiş göyüzütək.

Gündoğan ala bürünür,
Rübəndini atıb hilal
Səmaları seyr edirdi
Dodağında neçə sual.

Gündoğan od tutub yanır,
Ayın rəngi boğulurdu...
Təbiətin saf bətnindən
Al şəfəqlər doğulurdu.



Ayrılıq əbəsmi?! - bir hikməti var,
İstər bir gün olsun, istərsə yüz il,
Məhəbbət yuxudur, bitər yuxular...
Və.... yatan insan da gec-tez ayılar,-
Əfsus ki, röyalar əbədi deyil!



Cilvələnir göydə halə,
Geçə sakit, qənirsiz...
Kölgələr uyuyur hələ
Al günəşdən xəbərsiz...

Şəfəqlərsə tələsmədən
Səsləyir sübh çağını,
Səmaların, silir hərdən
Siyah təmtərağını...

Anlar ötüb keçir belə,
Gecə birdən qeyb olur...
Ölməz həyat eşqi ilə
Yeni bir gün doğulur!..



Ömrün qürub çağlarında
Zərif olur duyğular da...
İşıq saçır məşəl kimi
Son məhəbbət son baharda...

İşarır bir qərb ulduzu
Yarıtutqun göy üzündə,-
Ayaq saxla, sən ey axşam!
Qoy şad olum bir az mən də.

Damarımda donsa da qan,
Alovludur təbiətim!
Ey ümidsiz zövqü-səfam,
Ey mənim son məhəbbətim!



Rastlaşdıq... dünənin xatirələri
Canımdan yenə də can dilədilər;
O qızıl çağlara dönüncə geri,
Sanki ürəyimə nur çiləndilər...

...Bəzən payız çağı, gözlənilmədən,
Elə günlər olur, elə saatlar,
Duyğular oyanır içində birdən,
Sanırsan yenidən qayıdıb bahar.

Beləcə ruhlanıb ötən günlərin
Bir ürək dolusu pərvərişindən,
Çoxdan unutduğum mənalı, dərin,
Mehriban çöhrəni seyr edirəm mən.

Baxıram yüz ilin həsrətlisitək,
Elə bil, yuxuda görürəm sizi,-
Daha bərk döyünür sinəmdə ürək,
Duyulur qəlbimin susmayan səsi...

Bu nə xatirədir, nə xəyal dəmi,
Burada bir həyat gəlibdir dilə,-
Yenə də heyranam əvvəlki kimi,
Sevirəm əvvəlki məhəbbət ilə!..

Tərcümə: Afaq Şıxlı *(Moskva)*



DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış etməyə başlayırıq.

TYAN-İ PAVİLYONU KİTABXANASI

ÇİN



26

BU ÖZƏL KİTABXANANIN ƏSASI 1591-Cİ İLDƏ QOYULMUŞDUR. SONRALAR 7 İMPERATOR KİTABXANASI ONUN NÜMUNƏSİ ƏSASINDA İNŞA EDİLMİŞDİR.

ALLAH RƏHMƏT ELƏSİN!

Xəzər Universitetinin kollektivi universitetin əməkdaşları Qətibə və Elza İsmayılovalara ataları

Qurban İsmayılovun

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!



Valideynlərin və şagirdlərin nəzərinə!

Dünya məktəbi

Xəzər Universitetinin Dünya məktəbi 2016-2017-ci tədris ilində I-XI siniflərə şagird qəbulu elan edir:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom proqramında təlim ingilis dilindədir. Təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

Məktəbəqədər hazırlıq

2016-2017–ci il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.

Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (+99412) 563 59 40 /47/48
Mob.: (+99470) 844 08 88
E-mail: info@dunyaschool.az

Məktəbəqədər hazırlıq
Tel.: (+99412) 563 59 43/ 45
Mob.: (+99470) 560 15 18
E-mail: bagca@dunyaschool.az

http: //dunyaschool.az



Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:

I qrup üzrə:

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Biotibbi texnika mühəndisliyi
- Mexanika mühəndisliyi

II qrup üzrə:

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix müəllimliyi
- Coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər

III qrup üzrə:

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Politologiya
- Tərcümə (ingilis dili və digər dillər)
- Dizayn

IV qrup üzrə:

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Psixologiya

Ünvan: Məhsəti küçəsi, 41
(Neftçilər metrosunun yaxınlığında)
Əlaqə telefonları: (012) 323-93-13, (012) 408-81-78, (012) 421-79-27
Faks: (012) 498-93-79
İnternet: http//www.khazar.org

XƏZƏR UNİVERSİTETİ

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

QS (World University Rankings) təşkilatının 2015-ci il sentyabrın 15-də elan etdiyi reytinq cədvəlinə əsasən Xəzər Universiteti dünyanın ən yaxşı 700 universiteti arasında yer almışdır.

2015-ci il oktyabrın 21-də QS (World University Rankings) təşkilatı 2015/16-cı tədris ili üçün inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya ölkələri universitetlərinin 2-ci illik reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti Azərbaycandan ilk 70 ali təhsil müəssisəsi arasında yer almış tək universitetdir.

***

Xəzər Universiteti ilk gündən beynəlxalq təcrübəyə əsasən quruldu və Azərbaycanda ingilis dilində tədrisə keçən ilk universitet kimi tanındı. Təhsil sahəsində ən qabaqcıl ölkələrin təcrübəsini öyrənmək və tətbiq etmək ilkinliyi də məhz Xəzər Universitetinə nəsib oldu. Dünya təhsil məkanında qabaqcıl mövqeyi və nüfuzu ilə diqqətçəkən Universitetin beynəlxalq əlaqələri yalnız təlim-tədris sahəsində deyil, yüksək ixtisaslı dünya insanı hazırlığında da əhəmiyyət daşıyır. Demokratizm və humanizm, plüralizm və şəffaflıq, müasirlik və təşəbbüskarlıq, ən son təlim texnologiyalarından istifadə, beynəlxalq proqram və layihələrdə fəallıq və digər bu kimi hallar bütünlükdə Universitetdə işgüzarlıq şəraiti yaradır, tələbələrin fəallığı və müstəqilliyini təmin edir.

Professor Əjdər Ağayev,
Azərbaycan Təhsil Şurasının sədri

Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. İmtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.